Rəsmi dövlət qəzeti




# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 53 (8076) ÇƏRŞƏNBƏ, 6 mart 2019-cu il

Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur

www.azerbaijan-news.az


## Ermənistan danışıqlar prosesini pozmağa çalışır

Prezident İlham Əliyev münaqişənin həllində irəliləyişlərin əldə olunması üçün beynəlxalq birlik tərəfindən Ermənistana ciddi təzyiqlərin göstərilməsinin vacibliyini bəyan etdi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 5-də ATƏT-in fəaliyyətdə olan sədri, Slovakiyanın xarici işlər və Avropa naziri Miroslav Layçakın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.



AZƏRTAC xəbər verir ki, dövlət başçısı Miroslav Layçak ilə Davosdakı qısa görüşünü məmnunluqla xatırlayaraq, onun ölkəmizə bu səfərinin regionda vəziyyət, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli və digər məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığını bildirdi.

Miroslav Layçak Slovakiyanın ATƏT-ə sədrliyi dövründə müəyyən edilmiş prioritetlər barədə dövlət başçısına məlumat verərək, bu sırada münaqişələrin qarşısının alınmasının və vasitəçiliyin mühüm yer tutduğunu diqqətə çatdırdı, bu dövrdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqlar prosesinə töhfə vermək əzmində olduqlarını dedi. Miroslav Layçak münaqişə ilə bağlı vəziyyətlə yerindəcə tanış olmaq və fikir mübadiləsi aparmaq üçün bu səfərin yaxşı fürsət yaratdığını bildirdi.

Ölkəmizin ATƏT-ə üzvlüyə böyük önəm verdiyini deyən dövlət başçısı Azərbaycanın həm bu təşkilat çərçivəsində, həm də təşkilata üzv olan dövlətlərlə fəal iş apardığını və səmərəli tərəfdaşlıq əlaqələri qurduğunu dedi. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinə toxunan Prezident İlham Əliyev bu münaqişənin uzun illərdir ki, davam etdiyini və Azərbaycan ərazilərinin bütün beynəlxalq hüququn norma və prinsiplərinin kobud şəkildə pozularaq Ermənistan tərəfindən işğal altında saxlanıldığını diqqətə çatdırdı. Dövlət başçısı qeyd etdi ki, BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş bütün ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələrinə, ATƏT və digər təşkilatların bu cür qərar və qətnamələrinə baxmayaraq, 25 ildən artıqdır ki, bu tələblər yerinə yetirilmir. İşğal nəticəsində bir milyona yaxın soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyünü, torpaqlarımızın zəbt edildiyini, işğal olunmuş ərazilərdə qeyri-qanuni məskunlaşdırma və demoqrafik vəziyyətin dəyişdirilməsi siyasətinin həyata keçirildiyini deyən dövlət başçısı Azərbaycanın bu münaqişənin tezliklə sülh yolu ilə həllində ən maraqlı tərəf olduğunu bildirdi. Danışıqlar prosesində müəyyən dinamikanın müşahidə olunduğunu, xarici işlər nazirləri səviyyəsində dörd dəfə görüşün keçirildiyini və Azərbaycan Prezidenti ilə Ermənistanın baş naziri arasında üç dəfə söhbət aparıldığını qeyd edən dövlət başçısı Ermənistan tərəfindən substantiv danışıqların aparılması üçün hər hansı ciddi niyyətin olmadığını və Ermənistanın danışıqlar prosesini pozmağa çalışdığını bildirdi. Prezident İlham Əliyev münaqişənin həllində irəliləyişlərin əldə olunması və Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasının təmin edilməsi üçün beynəlxalq birlik tərəfindən Ermənistana ciddi təzyiqlərin göstərilməsinin vacibliyini qeyd etdi.

Görüşdə həmçinin ATƏT-in gündəliyində duran məsələlərə, Azərbaycan və Slovakiya arasında ikitərəfli əlaqələrin inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldı.



## Prezidentin fərmanının həm sosial, həm də iqtisadi cəhətdən əhəmiyyəti böyükdür

Redaksiyamız Prezidentin 28 fevral 2019-cu il tarixli "Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" fərmanına daha ətraflı şərh vermək üçün sənədin hazırlanmasında yaxından iştirakçı olan AR Maliyyə Bazarlarına Nəzarət Palatasına müraciət etmişdir.

Palatadan verilən şərhdə bildirilir ki, dövlət başçısı İlham Əliyevin fərmanı əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması və maliyyə sektorunda problemli kreditlərin azaldılması çərçivəsində müstəqillik tariximizin ən əhəmiyyətli qərarlarından biridir. Fərman əhalinin izafi borc yükünün azaldılması, iqtisadiyyatın inkişaf sürətini əngəlləyən qeyri-işlək aktivlərin həcminin azaldılması istiqamətində misilsiz əhəmiyyəti olan bir addımdır. Qəbul edilmiş fərman, eyni zamanda, bank və müştəri münasibətlərini bərpa edərək, maliyyə vasitəçiliyinin bərpasına təkan verəcəkdir.

Ümumilikdə fərman iki hissədən: a) devalvasiya nəticəsində xarici valyutada öhdəliklərinin manat ekvivalentinin artması nəticəsində izafi borc yükü yaranmış fiziki şəxslərin maliyyə itkisinin kompensasiya edilməsi; b) vaxtı keçmiş borc yükü olan fiziki şəxslərin borclarının güzəştli şərtlərlə restrukturizasiyasından ibarətdir.

Fərmanın birinci hissəsi fiziki şəxslərin təyinatından və təminatından asılı olmayaraq banklara və ləğvetmə prosesində olan banklar, habelə bank olmayan kredit təşkilatları (kredit ittifaqları istisna olmaqla) 2015-ci il fevralın 21-i və ya 2015-ci il dekabrın 21-nə qalıq borcu 10 min ABŞ dollarınadək xarici valyutada olan kreditlər üçün dövlət büdcəsi hesabına kompensasiyaları nəzərdə tutur. 2015-ci il fevralın 21-nə xarici valyutada qalıq borcunun hər dollarına görə 25 qəpik, 2015-ci il dekabrın 21-nə xarici valyutada qalıq borcunun hər dollarına görə 60 qəpik kompensasiya ödəniləcək. Hər iki devalvasiyadan əziyyət çəkən vətəndaş qalıq borcunun hər dollarına 85 qəpik kompensasiya alacaqdır. Kompensasiyalar mövcud borcu olan və artıq borc öhdəliyini icra etmiş hər bir vətəndaşa şamil ediləcəkdir. Məsələn, 2015-ci il fevralın 21-nə qalıq borcu 5000 ABŞ dolları olan vətəndaşın kredit ödənişlərini növbəti dövrlərdə icra edib-etməməsindən asılı olmayaraq baza olaraq 1250 manat, həmin borc vətəndaş tərəfindən ödənilmədikdə və 2015-ci il dekabrın 21-nə də eyni həcmdə olduğu təqdirdə isə əlavə 3000 manat kompensasiya hesablanmaqla həmin vətəndaşa ümumilikdə 4250 manat kompensasiya müəyyən ediləcəkdir.

Ardı 5-ci səh.

## Suma ÇAKRABARTİ: "Azərbaycanda həyata keçirilən islahatlar nəticəsində şəffaflıq və səmərəlilik artıb"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 5-də Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Suma Çakrabartinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.



AZƏRTAC xəbər verir ki, dövlət başçısı Azərbaycan ilə Avropa Yenidənqurma və İnkişaf Bankı arasında uzun illər çox uğurlu əməkdaşlığın davam etdiyini bildirərək, ümumi dəyəri 3,5 milyard dollardan artıq olan layihələrin həyata keçirilməsini Avropa Yenidənqurma və İnkişaf Bankının Azərbaycana yaxşı tərəfdaş kimi münasibətinin nümayişi kimi dəyərləndirdi və bütün bunlara görə Suma Çakrabartiyə təşəkkürünü ifadə etdi.

Xoş sözlərə görə minnətdarlığını bildirən Suma Çakrabarti dünyada neftin qiymətinin aşağı düşdüyü dövrdə Azərbaycana səfər etdiyini xatırlayaraq, ölkə iqtisadiyyatının bərpa olunaraq inkişafa qədəm qoyması münasibətilə təbriklərini çatdırdı. O, son illər ərzində Azərbaycanda həyata keçirilən islahatlar nəticəsində bir sıra sahələrdə, o cümlədən sərhəd və gömrük xidmətlərində şəffaflığın və səmərəliliyin artırıldığını, vergi sistemində dəyişikliklər edildiyini, "ASAN xidmət" sisteminin əhatə dairəsinin genişləndirildiyini və digər istiqamətlərdə böyük uğurlar qazanıldığını qeyd etdi. Suma Çakrabarti Dünya Bankının "Doing Business 2019" hesabatında Azərbaycanın 25-ci yerə yüksəlməsinin önəmini vurğulayaraq bunu əldə edilən böyük uğur kimi dəyərləndirdi.

Prezident İlham Əliyev Avropa Yenidənqurma və İnkişaf Bankı tərəfindən Azərbaycanda həyata keçirilən layihələrin maliyyələşdirilməsinin ölkəmizdə müasir infrastrukturun yaradılması işinə böyük kömək göstərdiyini qeyd etdi və bildirdi ki, özəl sektorun bu maliyyə vəsaitindən yararlanması və müsbət istiqamətdə inkişafı Avropa Yenidənqurma və İnkişaf Bankının Azərbaycanda həyata keçirdiyi strategiyanın uğurlu olduğunu göstərir. Azərbaycanda genişmiqyaslı islahatların həyata keçirildiyini qeyd edən Prezident İlham Əliyev bu islahatların və eləcə də idarəçilikdə yeni yanaşma nəticəsində biznesin daha da inkişafı üçün əlverişli şəraitin yarandığını və büdcə gəlirlərinin artdığını dedi, ötən il, eləcə də bu ilin yanvar-fevral aylarında gəlirlərin plandan artıq daxil olduğunu bildirdi. Dövlət başçısı hazırda Azərbaycanda gömrük və vergi sistemlərinin birgə sıx fəaliyyət göstərdiklərini və bunun nəticəsində bu orqanlarda maksimum şəffaflığın təmin edilməsi istiqamətində səmərəli nəticələrin əldə edildiyini bildirdi və qeyd etdi ki, bütün bu islahatlar və şəffaflığın təmin edilməsi əhali tərəfindən yüksək qiymətləndirilir. Azərbaycanın düşünülmüş və düzgün inkişaf yolu ilə irəlilədiyini vurğulayan dövlət başçısı ölkəmizin bu sahələrdə islahatların birinci hissəsinin başlanğıcında olduğunu, bu il və qarşıdakı illərdə də bütün bunların uğurlu nəticələr verəcəyinə əminliyini ifadə etdi.

Görüşdə Avropa Yenidənqurma və İnkişaf Bankının Azərbaycanla yeni sahələrdə əməkdaşlıqda maraqlı olduğu qeyd edildi və qeyri-neft sektorunun inkişafı, şəhərdaxili nəqliyyat, bərpaolunan enerji və digər sahələrdə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.

## Teatrın inkişafına dövlətin daha bir töhfəsi

Azərbaycan Prezidenti imzaladığı sərəncamla səhnə sənətinin daim diqqət mərkəzində olduğunu təsdiqlədi



Mədəniyyət tarixinin parlaq səhifələrini şərəflə yazan milli teatr dövlət müstəqilliyinin bərpasından sonra özünün yeni inkişaf mərhələsinə qədəm qoydu. İllərdən bəri baxımsızlıq üzündən öz simasını dəyişmiş teatr binalarının bərpası ilə yanaşı, yaradıcı kollektivlərə diqqət və qayğı öz bəhrəsini qısa müddət ərzində göstərdi.

Yaradıcılıq şəraitinin daha da yaxşılaşdırılması yolunda dövlət tərəfindən müntəzəm şəkildə müxtəlif tədbirlər həyata keçirilir, yeni-yeni sənət əsərləri səhnəyə çıxarılır, sənətkarların yubileyləri qeyd edilir, onların ictimai həyatdakı nüfuzları getdikcə artırılır. Məhz Azərbaycan milli teatrına dövlət və xalq məhəbbətinin təzahürüdür ki, yaradıcı kollektivlərin beynəlxalq mədəni əlaqələri də genişlənir. Bu isə Avropa və Şərqdə mədəniyyətimizin təbliğində mühüm vasitələrdən biridir. Respublikada fəaliyyət göstərən 27 dövlət, həmçinin bələdiyyə, uşaq və özəl teatrların səmərəli fəaliyyəti təmin edilir, onlar hər cür dövlət qayğısı ilə əhatə olunurlar.

Milli teatrın parlaq bədii irsinin qorunması, bu sahədə də islahatların aparılması, mədəniyyətin təbliği və bütövlükdə teatr sənətinin inkişafı ilə bağlı silsilə tədbirlər davam etdirilir.

Ardı 5-ci səh.

## Azərbaycan Dövlət Musiqili Teatrına və Azərbaycan Dövlət Rus Dram Teatrına "akademik" statusu verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan teatrlarının fəaliyyətinə dövlət qayğısını daha da artırmaq məqsədi ilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Dövlət Musiqili Teatrına və Azərbaycan Dövlət Rus Dram Teatrına "akademik" statusu verilməsini on beş gün müddətində təmin etsin;

1.2. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu sərəncama uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu sərəncama uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.5. bu sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu sərəncama uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 mart 2019-cu il*

# Azərbaycan ilə İtaliyanı bir-birinə bağlayan sıx əlaqələr mövcuddur

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 5-də ATƏT PA yanında İtaliya nümayəndə heyətinin sədri, İtaliya Deputatlar Palatasında Xarici Əlaqələr Komissiyasının sədr müavini Paolo Qrimoldini qəbul edib.



AZƏRTAC xəbər verir ki, dövlət başçısı Azərbaycan ilə İtaliya arasında siyasi, iqtisadi və digər sahələrdə çoxşaxəli əlaqələrin mövcud olduğunu qeyd edərək, yüksək səviyyədə həyata keçirilən səfərlərin önəmini vurğuladı. İtaliya Prezidentinin keçən il Azərbaycana, özünün isə İtaliyaya bir neçə dəfə səfər etdiyini xatırladan dövlət başçısı İtaliya Prezidentinin Azərbaycana rəsmi səfəri zamanı Azərbaycan və İtaliya prezidentlərinin İtaliya şirkətləri tərəfindən inşa edilmiş böyük sənaye müəssisəsinin açılışının qeyd edildiyini bildirdi və ölkələrimiz arasında sənaye, energetika, mədəniyyət və digər sahələrdə yaxşı əməkdaşlıq formatının olduğunu dedi.

Səfər zamanı Bakı haqqında təəssüratları barədə xoş sözlərini çatdıran Paolo Qrimoldi ölkələrimizi bir-birinə bağlayan sıx əlaqələrin mövcud olduğunu dedi. Enerji sahəsində Azərbaycan ilə İtaliya arasında bir sıra razılaşmaların olduğunu vurğulayan qonaq Azərbaycan qazını İtaliyaya çatdıracaq TAP boru kəməri üzrə işlərin uğurla davam etdirildiyini məmnunluqla vurğuladı. Paolo Qrimoldi iqtisadi sahədə əməkdaşlığımızın inkişafı ilə yanaşı, ikitərəfli münasibətlərimizin siyasi əlaqələrlə də şərtləndiyini dedi və ATƏT Parlament Assambleyasında Azərbaycan nümayəndə heyəti ilə səmərəli əməkdaşlıq həyata keçirdiklərini qeyd etdi.

Görüşdə həmçinin ölkələrimiz arasında mədəniyyət, turizm, idman və digər sahələrdə ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsinə dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# 2019 "Formula-1" Azərbaycan Qran-Pri yarışının təşkili və keçirilməsi ilə bağlı Azərbaycan Respublikasına gələcək əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Müəyyən edilsin ki, Azərbaycan Respublikasında keçiriləcək 2019 "Formula-1" Azərbaycan Qran-Pri yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn və bu sərəncamın 2-ci hissəsində göstərilən sənədlərdən hər hansı birini təqdim edən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər 2019-cu il martın 15-dən mayın 15-dək Azərbaycan Respublikasının beynəlxalq hava limanlarında viza ala bilərlər.

2. Aşağıdakı sənədlərdən biri viza verilməsi üçün əsas hesab edilsin:

2.1. "Formula-1" yarışlarının beynəlxalq təşkilatçıları olan "Formula One Management Limited" şirkətinin və Beynəlxalq Avtomobil Federasiyasının müvafiq qaydalarına uyğun olaraq akkreditasiyadan keçməni təsdiq edən akkreditasiya kartı;

2.2. Bakı Şəhər Halqası Əməliyyat Şirkətində akkreditasiyadan keçməni təsdiq edən akkreditasiya kartı;

2.3. 2019 "Formula-1" Azərbaycan Qran-Pri yarışına bilet və ya biletin əldə olunmasını təsdiq edən sənəd.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi:

3.1. 2019 "Formula-1" Azərbaycan Qran-Pri yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi, habelə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 1 iyun tarixli 923 nömrəli Fərmanının 4.2-ci bəndinə əsasən təsdiq edilmiş ölkələrin siyahısı üzrə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin "ASAN Viza" sistemi vasitəsilə elektron viza almaq imkanı barədə "Formula One Management Limited" şirkətinə, Beynəlxalq Avtomobil Federasiyasına və xarici ölkələrin müvafiq orqanlarına məlumat versin;

3.2. 2019 "Formula-1" Azərbaycan Qran-Pri yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi, habelə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin "ASAN Viza" sistemi vasitəsilə elektron viza almaq imkanı barədə məlumatın nazirliyin, eləcə də Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirliklərinin və konsulluqlarının internet informasiya ehtiyatlarında yerləşdirilməsini təmin etsin.

4. Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti Azərbaycan Respublikasına uçuşlar həyata keçirən aviasiya şirkətlərinə 2019 "Formula-1" Azərbaycan Qran-Pri yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi barədə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 mart 2019-cu il*

# Ə.M.Vəliyevin 3-cü dərəcəli "Əmək" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında mədəniyyət sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Ədalət Məqsəd oğlu Vəliyev 3-cü dərəcəli "Əmək" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 mart 2019-cu il*

# *QMİ sədri:* "Bütün dünyanın dini liderlərinin noyabrda Azərbaycanda toplanması planlaşdırılır"

Bütün dünyanın dini liderlərinin cari il noyabrın 14-15-də Azərbaycanda toplanması planlaşdırılır. Bununla bağlı ciddi hazırlıq işləri görülür.

AZƏRTAC xəbər verir ki, bu sözləri Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə mətbuat konfransında deyib. A.Paşazadə əlavə edib ki, Azərbaycan dünyada təkcə siyasəti, iqtisadiyyatı ilə deyil, eyni zamanda, mənəvi həyatda gördüyü işlərlə də tanınır.

"Bu gün Azərbaycanda mövcud olan tolerantlıq, dini dözümlülük dünya dövlətlərində yüksək qiymətləndirilir. Multikulturalizmin Azərbaycan modeli artıq bütün dünyada bir nümunədir", - deyə QMİ sədri vurğulayıb.

# *Kristina Marti LANQ:* "Fəxr edirik ki, Azərbaycan bizim əsas tərəfdaşlarımızdan biridir"



Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov martın 5-də İsveçrə Konfederasiyasının Federal Xarici İşlər Departamentinin dövlət katibinin müavini Kristina Marti Lanqın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan-İsveçrə münasibətlərinin müxtəlif istiqamətlərdə uğurla inkişaf etdiyini bildirən Baş nazir ölkələrimiz arasında siyasi, iqtisadi, qarşılıqlı sərmayə qoyuluşu və digər sahələrdə yaxşı əməkdaşlıq əlaqələrinin qurulduğunu diqqətə çatdırıb. Novruz Məmmədov əlaqələrin daha da genişləndirilməsi üçün böyük potensialın olduğunu qeyd edərək, yüksəksəviyyəli qarşılıqlı səfərlərin əməkdaşlığın inkişafı baxımından mühüm əhəmiyyət daşıdığını vurğulayıb.

Azərbaycan və İsveçrə prezidentlərinin görüşlərini xatırladan Novruz Məmmədov qeyd edib ki, Prezident İlham Əliyev ölkələrimiz arasında əlaqələrin inkişafına çox böyük önəm verir. Baş nazir Novruz Məmmədov Kristina Marti Lanqın ölkəmizə səfərinin əlaqələrimizin daha da genişləndirilməsinə mühüm töhfələr verəcəyinə əminliyini ifadə edib.

Azərbaycan-İsveçrə diplomatik münasibətlərinin 25 ildən çox yaşı olduğunu söyləyən Kristina Marti Lanq ölkələrimizin 20 ildir ki, beynəlxalq səviyyədə uğurla əməkdaşlıq etdiklərini vurğulayıb. "Hesab edirəm ki, ötən müddət ərzində biz müxtəlif sahələrdə kifayət qədər səmərəli əməkdaşlıq əlaqələri qurmuşuq. Fəxr edirik ki, Azərbaycan bizim əsas tərəfdaşlarımızdan biridir", - deyə Kristina Marti Lanq vurğulayıb.

Söhbət zamanı İsveçrənin AXPO şirkətinin Trans-adriatik boru kəməri layihəsində iştirakı, həmçinin hökumətlərarası birgə komissiyanın fəaliyyəti yüksək qiymətləndirilib, siyasi, iqtisadi, parlamentlərarası əlaqələrin genişləndirilməsinə və qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparılıb.

# *Miroslav LAYÇAK:* "Azərbaycan ATƏT üçün önəmli ölkədir"

Martın 5-də Milli Məclisin Sədri Oqtay Əsədov ATƏT-in fəaliyyətdə olan sədri, Slovakiyanın xarici işlər və Avropa naziri Miroslav Layçakın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, görüşdə Sədr Oqtay Əsədov Miroslav Layçakla görüşlərini xatırladaraq qonağın ATƏT-in fəaliyyətdə olan sədri kimi ölkəmizə səfərini yüksək qiymətləndirib. Bildirilib ki, Azərbaycan uzun illər bu nüfuzlu beynəlxalq qurumun üzvü kimi təşkilata üzv ölkələrlə əməkdaşlığın inkişafına böyük önəm verir. "Biz ATƏT-in müxtəlif institutları ilə sıx əməkdaşlıq edirik. Nümayəndə heyətimiz təşkilatın müxtəlif tədbirlərinə qatılır. Qarşılıqlı səfərlər əməkdaşlığımızın daha da dərinləşməsinə töhfə verir. Qurumun Parlament Assambleyasında müzakirə olunan məsələlərə deputatlarımız Azərbaycan tərəfinin mövqeyini bildirirlər. Hesab edirik ki, ATƏT-in səlahiyyətləri genişləndirilməli, onun maraq dairəsində olan məsələlərin həlli üçün lazımi şərait yaradılmalıdır. Bu, ATƏT məkanında mövcud münaqişələrin aradan qaldırılmasında əhəmiyyətli rol oynaya bilər", - deyə Milli Məclisin Sədri diqqətə çatdırıb.

Bildirilib ki, bu gün dinamik inkişaf edən Azərbaycanın ən ağrılı problemi olan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn normaları çərçivəsində, sərhədlərin toxunulmazlığı prinsipi əsasında həlli bölgənin tərəqqisinə böyük töhfə verər. Problemin həlli ilə məşğul olan ATƏT-in Minsk qrupu hələlik bu sahədə ciddi nəticələrə nail ola bilməyib. Biz inanırıq ki, problem tezliklə öz ədalətli həllini tapacaq.

Söhbətdə Oqtay Əsədov Azərbaycanın Slovakiya ilə əlaqələrindən söz açaraq münasibətlərimizin yüksələn xətlə inkişaf etdiyini deyib. Bildirilib ki, siyasi sahədə dialoq iqtisadi münasibətlərə də müsbət təsir göstərir. Parlamentlər səviyyəsində əməkdaşlığın genişləndirilməsi ümumi məqsədlərə xidmət edir. Bu sahədə dostluq qruplarının əhəmiyyəti böyükdür. Deputatlarımız müxtəlif beynəlxalq təşkilatlarda mütəmadi olaraq görüşür, onları maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparırlar.

ATƏT-in fəaliyyətdə olan sədri, Slovakiyanın xarici işlər və Avropa naziri Miroslav Layçak ölkəmizə səfərindən və burada aparılan danışıqlardan məmnun qaldığını söyləyib. O, səfərdə əsas məqsədin bölgədəki vəziyyətlə yaxından tanış olmaq, lazımi məlumatları ilk mənbədən əldə etmək olduğunu deyib. Bildirib ki, ATƏT-in fəaliyyətdə olan sədri kimi o, insan amilinə və sabitliyin qorunmasına böyük önəm verir. O, təşkilatın fəaliyyət istiqamətlərinin ATƏT məkanında münaqişələrin aradan qaldırılması, təhlükəsizliyin möhkəmləndirilməsi, nüfuzlu qurumlarla qarşılıqlı əməkdaşlığın genişləndirilməsi olduğunu diqqətə çatdırıb. M.Layçak vurğulayıb ki, Azərbaycan ATƏT üçün önəmli ölkədir və təmsil etdiyi təşkilat Qafqazın bu bölgəsi ilə gələcəkdə də əlaqələri genişləndirmək niyyətindədir.

Miroslav Layçak Dağlıq Qarabağ probleminin tezliklə həll edilməsi üçün təşkilatın mövcud imkanlarından maksimum istifadə edəcəklərini dilə gətirib. O, Slovakiya ilə Azərbaycan arasında müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsinin xalqların ümumi mənafelərinə xidmət etdiyini söyləyib.

Söhbət zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında söhbət açılıb.

Görüşdə Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev, Slovakiya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun başçısı Şəmsəddin Hacıyev, ölkəmizin ATƏT yanında daimi nümayəndəsi Qalib İsrafilov, Slovakiyanın Azərbaycandakı səfiri Peter Priputen, ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik, təşkilatın fəaliyyətdə olan sədrinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Rudolf Miçalka və digər rəsmilər iştirak ediblər.

# ATƏT Azərbaycanla əməkdaşlığın daha da möhkəmləndirilməsində maraqlıdır

Martın 5-də Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ATƏT-in fəaliyyətdə olan sədri, Slovakiyanın xarici işlər və Avropa naziri Miroslav Layçak ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tərəflər arasında təkbətək görüşdən sonra geniş tərkibli nümayəndə heyətlərinin iştirakı ilə müzakirələr davam etdirilib.

Nazir Elmar Məmmədyarov Avropanın təhlükəsizlik arxitekturasında ATƏT-in mühüm rol oynadığını qeyd edərək bu xüsusda üzv ölkələrin ərazisində mövcud və həlli uzadılmış münaqişələrin təhlükəsizliyə ciddi təhdid olduğunu vurğulayıb. Nazir Elmar Məmmədyarov fəaliyyətdə olan sədrə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə aparılan danışıqlar prosesinin son vəziyyəti haqqında məlumat verib. Nazir Ermənistan rəhbərliyinin son bəyanatlarına toxunaraq belə bəyanatların danışıqlar prosesinə ciddi xələl gətirdiyini vurğulayıb. Danışıqlar prosesində Azərbaycanın mövqeyinin dəyişilməz olduğunu söyləyən E.Məmmədyarov işğal edilmiş torpaqlarımızdan Ermənistan silahlı qüvvələrinin çıxarılması və azərbaycanlı köçkünlərin doğma torpaqlarına geri qayıtmasının danışıqların təməl daşı olduğunu və bu tələbin BMT Təhlükəsizlik Şurasının qətnamələrində əks olunduğunu söyləyib.

Miroslav Layçak Slovakiyanın ATƏT-ə sədrliyi dövründə müəyyən etdiyi prioritetlərə toxunaraq münaqişələr və onların humanitar nəticələrinin qarşısının alınması, vasitəçilik edilməsi və yumşaldılması məsələsinin bu sırada olduğunu diqqətə çatdırıb. O, bu baxımdan səfərinin münaqişə ilə bağlı vəziyyətə dair fikir mübadiləsi aparmaq üçün yaxşı fürsət yaratdığını bildirib.

Tərəflər Azərbaycan-ATƏT əməkdaşlığının gündəliyində duran bir sıra məsələləri də müzakirə ediblər. ATƏT-in iqtisadi və ətraf mühit məsələlərindən ibarət ikinci ölçüsü üzrə əməkdaşlığın canlandırılması məsələsinə toxunan nazir E.Məmmədyarov bağlılıq məsələlərinə xüsusi diqqət ayrılmasını qeyd edib. O, slovakiyalı həmkarına "Xəzər dənizi - Qara dəniz beynəlxalq nəqliyyat marşrutu" üzrə keçirilən xarici işlər nazirlərinin dördtərəfli görüşü barədə məlumat verib.

ATƏT-in ikinci ölçüsü üzrə əməkdaşlığın inkişaf etdirilməsi fikrini dəstəkləyən fəaliyyətdə olan sədr bu xüsusda ATƏT-in İqtisadi və Ətraf Mühit Əlaqələndiricisi Ofisi ilə birlikdə hazırlanmış "Xəzər dənizi regionunda bağlılığın və yaşıl limanların təşviqi" adlı ATƏT-in büdcədənkənar layihəsini qeyd edib.

Azərbaycan-Slovakiya münasibətlərinə toxunan nazirlər Slovakiyanın Baş nazirinin ölkəmizə səfərinin nəticələrini yüksək qiymətləndiriblər. Bu xüsusda, slovakiyalı diplomat tezliklə ölkəsinin Azərbaycanda diplomatik nümayəndəliyinin açılması ilə bağlı siyasi qərarını vurğulayaraq bu qərarın ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsinə töhfə verəcəyini bildirib.

Söhbət zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ilə bağlı geniş fikir mübadiləsi aparılıb. Görüşdən sonra birgə mətbuat konfransı keçirilib.

Xarici işlər naziri Elmar Məmmədyarov qeyd edib ki, görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair səmərəli müzakirələr aparılıb. Ermənistanın milli təhlükəsizlik xidmətinin sədri Artur Vanetsyanın bəyanatlarına münasibət bildirən nazir Elmar Məmmədyarov Ermənistan rəhbərliyinin son vaxtlar belə bəyanatlar səsləndirdiklərini və bunun danışıqlar prosesinə mənfi təsir etdiyini vurğulayaraq deyib: "Azərbaycan münaqişənin beynəlxalq hüququn normaları çərçivəsində sülh yolu ilə həlli üçün böyük səylər göstərir. Ermənistan tərəfindən verilən bəyanatlar isə heç də sülh vəd etmir".

Münaqişə başlayandan bəri erməni xalqının ancaq əziyyətlərə, məhrumiyyətlərə düçar olduğunu, demoqrafik, siyasi və iqtisadi problemlərlə üzləşdiyini bildirən nazir problemin həllinin vacibliyini vurğulayıb. O deyib: "Həmsədrlər də, Azərbaycan da eyni mövqedən çıxış edib status-kvonun saxlanılmasının yolverilməz olduğunu bildirirlər. Azərbaycan münaqişənin sülh yolu ilə həll edilməsinin tərəfdarıdır və bu sahədə fəaliyyətini davam etdirir".

Nazir bu yaxınlarda bölgədə sabitliyin və dayanıqlı inkişafın dəstəklənməsi istiqamətində Azərbaycan, Gürcüstan, Rumıniya və Türkmənistan arasında iqtisadi əməkdaşlığı daha da möhkəmləndirmək və genişləndirmək məqsədilə Buxarestdə xarici işlər nazirlərinin iştirakı ilə xüsusi görüşün təşkil edildiyini və orada geniş müzakirələr aparıldığını da bildirib.

Mətbuat konfransında Miroslav Layçak ATƏT-in sədri kimi Azərbaycana ilk dəfə səfər etdiyini vurğulayıb. Slovakiya ilə Azərbaycan arasında əməkdaşlığın daha da möhkəmləndirilməsi istiqamətində işlərin görüldüyünü bildirən nazir bu yaxınlarda Bakıda səfirlik açmağa qərar verdiklərini vurğulayıb. M.Layçak ATƏT-dəki sədrliyi dövründə prioritetlərdən birinin məhz münaqişələrin həlli olduğunu bildirib. ATƏT-in Dağlıq Qarabağ münaqişəsinin həllinə davamlı dəstəyini vurğulayan M.Layçak təşkilatın bundan sonra da bu istiqamətdə fəaliyyətini davam etdirmək əzmində olduğunu deyib. Qeyd edib ki, indiyə qədər prezidentlər və nazirlər səviyyəsində çoxlu müzakirələr aparılıb. Bu iş davam etdirilməlidir.

M.Layçak ATƏT-in Azərbaycanla əməkdaşlığa xüsusi önəm verdiyini bildirərək deyib: "Azərbaycan ATƏT-in vacib üzv dövlətlərindən biridir. ATƏT-in Azərbaycanla əməkdaşlığının daha da möhkəmləndirilməsi üçün müxtəlif məsələləri müzakirə etdik".

# İşğal altındakı ərazilərdə qeyri-qanuni fəaliyyətlərin qarşısının alınması ilə bağlı beynəlxalq konfrans keçirilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qarşıya qoyduğu tapşırığa uyğun olaraq "Hərbi işğal altında olan ərazilərdə iqtisadi və digər fəaliyyətlərin qeyri-qanuniliyi: üçüncü tərəflərin öhdəlikləri və münaqişənin həllinə təsirləri" mövzusunda Bakıda beynəlxalq konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirin əsas məqsədi Ermənistan Respublikasının hərbi işğalı nəticəsində nəzarət olunmayan Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınan ərazilərində təcavüzkar dövlətin və digər ölkələrin hüquqi və fiziki şəxslərinin qanunsuz hərəkətlərini dünyanın nüfuzlu beynəlxalq hüquqşünasları və ekspertlərinin, o cümlədən ölkəmizin aidiyyəti qurumlarının mütəxəssislərinin də iştirakı ilə müzakirə etmək, bu fəaliyyətin hüquqi aspektləri və nəticələrini müəyyən etmək olub.

Konfransda əvvəlcə xarici işlər naziri Elmar Məmmədyarovun, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayevin, iqtisadiyyat nazirinin müavini Rüfət Məmmədovun və UNESCO-nun Ümumdünya İrs Mərkəzinin direktoru xanım Meçtild Rösslerin çıxışları dinlənilib.

Sonra isə konfrans "Hərbi işğal altında olan ərazilərdə qeyri-qanuni fəaliyyətlə bağlı beynəlxalq hüquqi çərçivə", "Beynəlxalq hüquqda üçüncü tərəflərin öhdəlikləri və məsuliyyəti", "İşğal olunmuş ərazilərdə aparılan qanunsuz iqtisadi fəaliyyətə beynəlxalq cavab" adlı panel iclaslarla davam etdirilib.

Tədbirdə Azərbaycanda və dünyanın digər münaqişəli bölgələrində qeyri-qanuni iqtisadi fəaliyyətlə məşğul olan dövlətlərin, hüquqi və fiziki şəxslərin öhdəlikləri və məsuliyyəti, beynəlxalq ictimaiyyətin cavabdehliyi və bu cür qanunsuz hərəkətlərə reaksiyası, beynəlxalq hüququn tətbiqi kimi məsələlərin əhəmiyyəti barədə geniş fikir mübadiləsi aparılıb və bu istiqamətdə fəaliyyətin gücləndirilməsi üçün tövsiyələr təqdim edilib.

Konfrans beynəlxalq hüquqşünaslar və ekspertlərin imkanlarını nəzərə alaraq Azərbaycanın işğal olunmuş torpaqlarında qeyri-qanuni fəaliyyətləri həyata keçirən Ermənistan və digər üçüncü tərəflərin qanunsuz əməllərinin hüquqi müstəvidə qarşısını almaq üçün geniş imkanlar yaradıb. Bu mövzuda beynəlxalq səviyyədə digər tədbirlərin də keçirilməsi nəzərdə tutulub.

Tədbirdə bir sıra dövlət qurumları, xarici ölkələrin və beynəlxalq təşkilatların ölkəmizdəki diplomatik missiyaları, xarici və yerli elmi-akademik dairələrin nümayəndələri də iştirak ediblər.

Milli Məclisin iclasında

# Prezidentin sosial islahatlar paketi vətəndaşların hüquq və azadlıqlarının müdafiəsinə də mühüm töhfə verir

**Milli Məclisin dünənki iclası insan hüquqları üzrə müvəkkil Elmira Süleymanovanın illik məruzəsi ilə öz işinə başladı. Ombudsmanın mülki və siyasi, iqtisadi, sosial və mədəni hüquqların, habelə müxtəlif əhali qruplarının hüquq və azadlıqlarının müdafiəsi sahəsindəki fəaliyyəti, insan hüquqlarının səmərəli təmin edilməsinə, əhalinin müxtəlif qruplarının problemlərinin həllinə yönəlmiş təklif və tövsiyələrinin öz əksini tapdığı hesabatda bir neçə təklif də yer alıb.**





## 3 milyona yaxın insanın sosial problemləri həllini tapdı

Ombudsman qeyd etdi ki, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin qeyd edildiyi 2018-ci il tarixi əhəmiyyətli hadisələrin zənginliyi ilə yadda qaldı. Ən mühüm hadisə cənab İlham Əliyevin bir daha böyük səs çoxluğu ilə Azərbaycan Prezidenti seçilməsi oldu.

Dərin islahatlar ili olan 2018-ci ildən sosial problemlərin həllinə yönəlmiş fərman və sərəncamlar, xüsusən bu günlərdə cənab Prezidentin yanında iqtisadi və sosial məsələlərlə bağlı keçirilmiş, inqilabi islahatların əsası qoyulan müşavirədə verdiyi bir çox tapşırıqlar, o cümlədən problemli kreditlərin həlli əhalinin bütün qruplarını əhatə etməklə dövlətin ali məqsədi olan insan və vətəndaş hüquqlarının və azadlıqlarının, vətəndaşlara layiqli həyat səviyyəsinin təmininə xidmət edir.

Qədul edilən qərarlar həm şamil olunan əhali sayı, həm də nəzərdə tutulmuş büdcə vəsaitlərinin həcminə görə xüsusilə fərqlənir ki, bu da 3 milyona yaxın insanın dövlət büdcəsindən 2 milyarddan artıq vəsait ayrılmaqla sosial problemlərinin həllini təmin edəcək: “Regionların inkişafına dair III dövlət proqramının uğurla yerinə yetirilməsi, vergi qanunvericiliyinin təkmilləşdirilməsi, minimum aylıq əməkhaqqı məbləğinin yaşayış minimumuna çatdırılması, sosial müavinətlərin və əmək pensiyasının minimum məbləğinin artırılması da insan hüquqlarının səmərəli təmin olunmasında mühüm əhəmiyyət kəsb edir”.

Ötən il 118 min iş yeri açılıb, işsizlik səviyyəsi 5, yoxsulluq isə 4,9 faizədək azalıb.

## 1 ildə müvəkkilin ünvanına 20.400 müraciət daxil olub

Ötən il hüquq mədəniyyətinin yüksəldilməsinə və hüquqi biliklərin artırılmasına xidmət edən, o cümlədən ənənəvi olaraq insan hüquqları üzrə aylıqlar çərçivəsində ölkəmizdə geniş maarifləndirmə tədbirləri həyata keçirilib. 2018-ci ildə ombudsmana 20.400 müraciət olunub, bunlardan da icraata qəbul edilən şikayətlərin 63,5 faizi təmin edilib.

Sosial təminat hüququ, o cümlədən pensiyaların yenidən hesablanması, birdəfəlik yardım, müavinət, əlillik dərəcəsinin təyin olunması, sanatoriya-kurort yollayışının verilməsi ilə bağlı bir sıra müraciətlər araşdırılıb.

Respublikanın ərazi bütövlüyü uğrunda həlak olmuş hərbi qulluqçuların vərəsələrinə 11.000 manat birdəfəlik ödəmənin, şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə ötən il 626 mənzilin verilməsi bu qəbildən olan insanların sosial rifahının yüksəlməsinə xidmət edib.

## 4 məhkəmə sədri aşağı işə keçirilib, 6 hakim intizam məsuliyyətinə cəlb edilib

Ötən il vətəndaşların haqlı narazılığını doğuran pozuntulara görə 14 hakimin fəaliyyəti qeyri-məqbul qiymətləndirilməklə səlahiyyətlərinə xitam verilib, 4 məhkəmə sədri aşağı işə keçirilib, 6 hakim intizam məsuliyyətinə cəlb edilib, 2 nəfər tutduğu vəzifədən azad olunub, 1 nəfərin səlahiyyətlərinə vaxtından əvvəl xitam verilib.

Məhkəmə qərarlarının icrasına gəlincə, borc, xüsusilə alimentin ödənilməsi ilə bağlı müraciətlər çoxluq təşkil edir.

2018-ci ildə aparılmış xidməti yoxlamaların nəticəsi üzrə müxtəlif nöqsan və çatışmazlıqlara yol verdiklərinə görə 31 prokurorluq işçisi, 399 daxili işlər orqanlarının əməkdaşı intizam məsuliyyətinə cəlb edilib.

## Ombudsmanın vəsatəti ilə keçən il 72 məhkum əfv edilib

Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən humanizm və ədalət prinsiplərinə əsaslanan dövlət siyasətinin, habelə insan və vətəndaş hüquq və azadlıqlarına hörmət və ehtiramın nəticəsidir ki, ölkəmizdə qısa müddətdə ümumilikdə 11 amnistiya aktı qəbul olunub, 64 əfv fərmanı və sərəncamları imzalanıb.

Bunun nəticəsində minlərlə insan cəzadan azad edilərək cəmiyyətə və ailələrinə qovuşublar. Müvəkkilin fəaliyyəti dövründə onun vəsatəti ilə ümumilikdə 638, 2018-ci ildə isə 72 məhkum əfv edilib.

Cəza siyasətinin humanistləşməsi və alternativ cəzaların tətbiqi ilə əlaqədar məhkəmələr tərəfindən 6 minə yaxın məhkum haqqında sənədlərə baxılıb, 4200-dən çox şəxs cəzadan azad olunub, yaxud cəza müddətləri azaldılıb, 900-dən çox məhkuma elektron qolbaq tətbiq edilib.

## Yeni Milli Fəaliyyət Proqramının qəbul olunması təklif edilir

Müzakirələr zamanı deputatlardan Tahir Kərimli, Fazil Mustafa, Fərəc Quliyev, Sahib Alıyev, Musa Quliyev, Qənirə Paşayeva, İlham Məmmədov çıxış edərək bildirdilər ki, ombudsmanın çox müfəssəl şəkildə hazırladığı məruzəsində mühüm sosial məsələlərin həlli istiqamətində görülən işlər öz əksini tapıb. Bütün bunlar göstərir ki, ombudsman üzərinə düşən vəzifənin öhdəsindən layiqincə gəlir.

Milli Məclis Sədrinin müavini, parlamentin İnsan hüquqları komitəsinin sədri Bahar Muradova qeyd etdi ki, ombudsmanın illik məruzəsində əks olunan məsələlər komitənin iclasında müzakirə edilərək təhlil edilib. Məruzə çox əhatəli şəkildə hazırlanıb. Müzakirələr zamanı deputatlar yeni milli fəaliyyət proqramının qəbul olunmasının vacibliyini vurğulayıblar.

Bahar Muradovanın sözlərinə görə, yarandığı vaxtdan vətəndaş cəmiyyətinin ayrılmaz tərkib hissəsi kimi fəaliyyət göstərən Ombudsman Aparatı üzərinə düşən vəzifənin öhdəsindən uğurla gələrək hər zaman vətəndaşla dövlət arasında vasitəçi kimi çıxış edib.

## Vətən xainləri layiqli cəzalarını alacaqlar

Parlamentin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov isə qeyd etdi ki, Prezident İlham Əliyev tərəfindən vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi sahəsində mühüm addımlar atıldı, bu istiqamətdə mövcud problemlər aradan qaldırıldı. Xalq Prezidentə alqış edir. Çünki nə postsovet, nə də Avropa ölkələrində insanlara Azərbaycandakı kimi belə yüksək diqqət edilir. Dövlət başçısı tərəfindən həyata keçirilən tədbirlər ombudsmanın fəaliyyətini də yüngülləşdirir.

İnsanların hüquqlarının qorunması ilə bağlı mühüm işlərin görüldüyünü deyən komitə sədri bildirdi ki, bu gün Azərbaycan Prezidentinin hüquqları qanunla qorunur. Ancaq ölkədən kənarda yaşayan bəzi şəxslərin “fəaliyyəti” xalqın etirazına səbəb olur: “Lakin bu gün qanuna əməl etməyən, ölkədən kənarda fəaliyyət göstərən bir qrup insan var ki, onlar nə ictimaiyyətin fikirlərinə, nə də qanunlara əhəmiyyət verir. Həmin şəxslərin fəaliyyətləri silahlı basqına, müxtəlif çağırışlara yönəlib. Ombudsman həmin şəxslərin fəaliyyət göstərdikləri ölkələrin ombudsmanlarına müraciət etməlidir. Cənab Prezidentin hüquqları qanunla qorunduğu kimi, ombudsman tərəfindən də bu məsələyə diqqət yetirilməlidir”.

Deputat Qüdrət Həsənquliyev isə xatırlatdı ki, bu günlərdə vətən xaini Fəxrəddin Abbasov Azərbaycana ekstradisiya olundu. Bu şəxs dövlətə qarşı etdiyi xəyanətə görə layiqli cəzasını alacaq və bu da digərlərinə dərs olacaq.

## Ombudsmanın beynəlxalq fəaliyyəti təqdir edildi

Milli Məclisin Elm və təhsil komitəsinin sədri İsa Həbibbəyli, Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlı çıxış edərək Ombudsman Aparatının beynəlxalq əlaqələrini, bu əlaqələrin yaradılmasında gördüyü işləri təqdir etdilər. Qeyd edildi ki, bu işin Azərbaycanda insan haqlarının qorunması sahəsində atılan addımların dünya ictimaiyyətinə çatdırılmasında böyük əhəmiyyəti var.

Məruzədən aydın şəkildə görünür ki, ombudsman və onun komandası ölkədə gedən proseslərin içərisindədir və bununla bağlı zəruri addımlar atırlar.

Çıxışlardan sonra ombudsmanın hesabatı səsə qoyularaq qəbul edildi.

## Gənclər təşkilatlarının üzvlərinə yaş məhdudiyyəti tətbiq edilir

İclasda gündəliyə çıxarılan digər məsələlər də müzakirə edildi. Deputatlar “Hərbi vəzifə və hərbi xidmət haqqında”, “Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında” qanunlarda, Azərbaycan Respublikasının Cəzaların İcrası və İnzibati Xətalar məcəllələrində dəyişiklik edilməsi barədə (üçüncü oxunuş), “Vəkillər və vəkillik fəaliyyəti haqqında”, “Reklam haqqında” və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında (hər ikisi üçüncü oxunuş) qanun layihələrinə müsbət münasibət bildirdilər.

“Gənclər siyasəti haqqında” qanunda dəyişiklik edilməsi barədə layihə haqqında (üçüncü oxunuş) parlamentin Gənclər və idman komitəsinin sədri Ülvi Quliyev məlumat verərək bildirdi ki, dəyişikliyə əsasən Azərbaycanda gənclər siyasətinin həyata keçirilməsi sahəsində dövlətin vəzifələri artırılır.

Dəyişikliklə “Gənclər evi” sosial xidmət müəssisələri şəbəkəsində hansı xidmətlərin göstərilməsi müəyyənləşib. Sənədə edilən dəyişikliklə gənclər təşkilatlarının üzvlərinə yaş məhdudiyyəti tətbiq edilib. Qeyd edilir ki, gənclər təşkilatları gənclərin problemlərinin müəyyən edilməsi, həlli, hüquqlarının müdafiəsi, mənəvi tələbatlarının ödənilməsi və s. məqsədilə 16 yaşdan 35 yaşınadək olan fiziki şəxslər tərəfindən təsis edilən qeyri-hökumət təşkilatlarıdır. Gənclər təşkilatlarının üzvlərinin həmin təşkilatlarda üzvlüyünə onların 35 yaşı tamam olduğu andan xitam verilir.

Müzakirələr zamanı deputat Vahid Əhmədov 35 yaşla bağlı məsələyə aydınlıq gətirilməsini istədi. Onun fikrincə, gənclər təşkilatlarının üzvlərinin həmin təşkilatlarda üzvlüyünə onların 45 yaşı tamam olduğu andan xitam verilməlidir. Bununla əlaqədar müraciətlər çoxdur, sosial şəbəkələrdə də müzakirələr aparılıb.

Milli Məclisin Sədri Oqtay Əsədov isə Vahid Əhmədova cavab olaraq bildirdi ki, dünyanın hər yerində yaş həddi qoyulur: “Elə ölkələr var ki, bu hədd 28, elə ölkələr də var ki, 35 yaş müəyyən edir”.

Dəyişiklik səsverməyə çıxarılaraq qəbul edildi.

## Şəhərsalma və Tikinti Məcəlləsinə yeni dəyişiklik edildi

Parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında sənədlə bağlı məlumat verdi.

Qeyd edildi ki, bundan sonra tikinti layihələrinin şəhərsalma sənədlərinə uyğunluğunun yoxlanılmasına, habelə siyahısına, məbləğinə və tətbiqi hallarına və icra hakimiyyəti orqanının müəyyən etdiyi tikinti fəaliyyəti sahəsində müvafiq qurumlar tərəfindən göstərilən digər xidmətlərə görə haqq ödəniləcək. Bununla bağlı məcəllənin 11-ci maddəsində dəyişiklik edilib. Hazırda isə məcəllədə ödənişlər yalnız tikinti layihələrinin ekspertizadan keçirilməsi üçün nəzərdə tutulub.

Digər dəyişiklik isə tikinti ilə bağlı cərimələrin 50 faizinin inzibati protokolu tərtib edən qurumun hesabına köçürülməsi ilə bağlıdır. Məcəlləyə edilən əlavədə qeyd olunur ki, müvafiq icra hakimiyyəti orqanı tərəfindən tətbiq edilən cərimələrdən toplanan vəsaitin 50 faizi müvafiq icra hakimiyyəti orqanlarının işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədilə müvafiq icra hakimiyyəti orqanlarının hesablarına köçürülür. Bu sənəd də səsverməyə çıxarılaraq qəbul edildi.

## Bəzi vergi borcları silinir

Deputatlar həmçinin “Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında”, “Özəlləşdiriləcək dövlət əmlakının (müəssisələrinin) 2019-cu il 1 mart tarixinə mövcud olan əmlak və torpaq vergiləri üzrə borclarının tənzimlənməsi haqqında” qanun layihələrinə də müsbət münasibət bildirdilər.

Dəyişikliyə əsasən özəlləşdiriləcək dövlət əmlakının (müəssisələrin) 2019-cu il martın 1-dək olan əmlak və torpaq vergiləri üzrə borclarının bir hissəsi silinəcək.

Bu qanun qüvvəyə minmə tarixindən sonrakı dövrdə özəlləşdirilməsi başa çatan dövlət əmlakının bu qanunun qüvvəyə minmə tarixinədək olan əmlak və torpaq vergiləri üzrə borcları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həyata keçirilir. Belə ki, dövlət əmlakının özəlləşdirildiyi tarixdən etibarən bir il ərzində bu borcların 30 faizi ödənildikdə ödənilməmiş borcların 70 faizi, 2 il ərzində bu borcların 50 faizi ödənildikdə ödənilməmiş borcların 50 faizi, 3 il ərzində bu borcların 70 faizi ödənildikdə ödənilməmiş borcların 30 faizi silinir.

## Geoloji parklar yaradılacaq

İclasda “Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında” qanuna da dəyişiklik edildi. Dəyişiklik layihəsi geoloji parkların yaradılması ilə bağlıdır.

Belə ki, qanuna yeni - XI-I fəsil əlavə edilir. Əlavə edilən 40-1 (Geoloji parkların və onların təşkili) maddəsinə əsasən, geoloji parklar - xüsusi geoloji, coğrafi, tarixi, estetik və digər əhəmiyyət daşıyan təbiət obyektlərinin yerləşdiyi təbiəti mühafizə, maarifçilik, elmi, mədəni, turizm və digər məqsədlər üçün istifadə olunan təbiəti mühafizə və elmi müəssisə və ya təşkilat statusuna malik ərazilərdir. Geoloji parkların əraziləri respublika əhəmiyyətli xüsusi mühafizə olunan təbiət ərazilərinə aiddir.

Geoloji parklar müvafiq dövlət orqanının təqdimatı əsasında müvafiq icra hakimiyyəti orqanının qərarı ilə təşkil edilir. Hər bir geoloji park müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilən əsasnaməyə uyğun olaraq fəaliyyət göstərir.

## Qanunsuz beynəlxalq telekommunikasiya xidmətlərinin təşkili cinayət əməli hesab ediləcək

Milli Məclis həmçinin “Pasportlar haqqında”, “Sığorta fəaliyyəti haqqında”, Cinayət, İnzibati Xətalar, Mülki Prosessual məcəllələrində dəyişiklik edilməsi haqqında, “İpoteka haqqında” qanunda dəyişiklik edilməsi barədə (hamısı ikinci oxunuş) qanun layihələrini də təsdiqlədi.

Gündəliyin sonuncu məsələsi isə “Telekommunikasiya haqqında” qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) idi. Dəyişikliyə əsasən bundan sonra telekommunikasiya şəbəkəsinə qoşulmaqla qanunsuz beynəlxalq telekommunikasiya xidmətlərinin təşkili cinayət əməli hesab ediləcək. Yəni telekommunikasiya operatorunun və ya provayderinin telekommunikasiya şəbəkəsinə müvafiq qurğu vasitəsilə qanunsuz qoşulmaqla beynəlxalq telekommunikasiya xidmətlərinin təşkili əhəmiyyətli dərəcədə zərərvurmaya səbəb olduqda azadlıqdan məhrumetmə cəzası tətbiq ediləcək. Bu zərərin vurulmasına görə ziyanın 2 mislinədək cərimə və ya 2 ilədək müddətdə islah işləri və ya azadlıqdan məhrumetmə nəzərdə tutulur. Bu əməllər külli miqdarda zərərvurmaya səbəb olduqda isə vəzifəli şəxslər 3 il müddətinə vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilir və vurulmuş ziyanın 3 mislindən 4 mislinədək miqdarda cərimə və ya 3 ildən 5 ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya 4 ildən 6 ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Dəyişikliklər səsə qoyularaq qəbul edildi və bununla da Milli Məclisin plenar iclası başa çatdı.

***Rəşad BAXŞƏLİYEV,***
***Fərman BAĞIROV (foto),***
***“Azərbaycan”***

# Bakıda "Dinlərarası və sivilizasiyalararası dialoqdan əməkdaşlığa doğru" mövzusunda beynəlxalq konfrans keçirilib



Martın 5-də Bakıda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) və Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) birgə təşkilatçılığı ilə "Dinlərarası və sivilizasiyalararası dialoqdan əməkdaşlığa doğru" mövzusunda beynəlxalq konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, konfransda ABŞ-ın ölkəmizdə səfərdə olan nümayəndə heyətinin üzvləri, Kabardino-Balkar Respublikasının müftisi, İmam Əbu-Hənifə adına Şimalı Qafqaz Universitetinin rektoru, o cümlədən tanınmış dövlət, din və elm xadimləri, dini konfessiya rəhbərləri, dövlət, hökumət və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan DQİDK-nın sədri Mübariz Qurbanlı Azərbaycandakı nümunəvi dövlət-din münasibətlərindən danışıb. Bildirib ki, Azərbaycanın dövlət-din münasibətlərində uğurlarının səbəbi dinlə bağlı siyasətin lap başdan sağlam, düzgün istiqamətdə qurulmasıdır. Məhz ulu öndər Heydər Əliyevin diqqət və qayğısı nəticəsində ölkəmizdə din sahəsində sabitlik əldə edilib, dövlət-din münasibətlərinin beynəlxalq hüquq normaları müstəvisində tənzimlənməsi, dini konfessiyalar arasında dözümlülük mühitinin qorunub-saxlanılması və daha yüksək səviyyədə inkişafı istiqamətində böyük işlər görülüb, dini icmaların və ibadət ocaqlarının fəaliyyəti üçün hüquqi-mənəvi şərait yaradılıb. Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu dövlət-din münasibətləri modeli hazırda Prezident İlham Əliyev tərəfindən zamanın tələblərinə uyğun olaraq daha da gücləndirilib və elə bir səviyyəyə çatdırılıb ki, artıq bu model dünyada nümunə kimi qəbul olunur.

Dövlət komitəsinin sədri vurğulayıb ki, əgər müstəqilliyimizin ilk illərində ölkəmiz dinlərarası, mədəniyyətlərarası, sivilizasiyalararası dialoqun iştirakçısı idisə, hazırda Azərbaycan dünyada beynəlxalq təhlükəsizliyə ciddi təhdid olan dini və etnik zəmində baş verən qarşıdurmaların qarşısının alınmasında öz əməli fəaliyyəti ilə hərəkətverici qüvvəyə çevrilib.

2016-cı ilin ölkəmizdə "Multikulturalizm ili", 2017-ci ili isə "İslam həmrəyliyi ili" elan edildiyini xatırladan Mübariz Qurbanlı bu addımların dünya xalqları və mədəniyyətləri arasında qarşılıqlı hörmət və anlayışı, əməkdaşlıq və dialoqu təşviq edən xoşməramlı çağırış olduğunu qeyd edib. O, bu istiqamətdə Qafqaz Müsəlmanları İdarəsi ilə birgə yüksək səviyyəli beynəlxalq konfranslar təşkil olunduğunu bildirib. Əlavə edib ki, bu cür konfransların davam etdirilməsi məqsədilə Prezident İlham Əliyevin tapşırığı ilə QMİ-nin nəzdində Bakı Beynəlxalq Dinlərarası və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzi yaradılıb.

Konfransda çıxış edən QMİ-nin sədri Şeyxülislam Allahşükür Paşazadə deyib ki, Azərbaycanda milli və bəşəri dəyərlərə hər zaman böyük önəm verilib. Ölkəmizdə dini-mənəvi irsə ehtiram, müxtəlif mədəniyyətlərin dialoqu, tolerantlıq ənənələri olduqca yüksək səviyyədədir. Milli və dini tolerantlıq dövlət səviyyəsində dəstəklənir. Etnik və dini müxtəliflik ölkəmizin milli sərvəti kimi dəyərləndirilir. "Bu, bizim qürur mənbəyimizdir. Təbii ki, burada siyasi iradə böyük önəm daşıyır. Dövlət-din münasibətlərinin əsasını xalqımızın ümummilli lideri Heydər Əliyev qoyub və hazırda yüksək səviyyədə davam və inkişaf etdirilir. Prezident İlham Əliyev dünya miqyasında multikulturalizm ideyasının fəal təbliğatçısı, mədəniyyətlərarası əməkdaşlığa dair "Bakı Prosesi"nin müəllifidir. Ölkəmiz artıq mədəniyyətlərarası, dinlərarası dialoqa dair mötəbər beynəlxalq tədbirlərin, o cümlədən Dini Liderlərin Ümumdünya Sammitinin keçirildiyi ənənəvi məkana çevrilib",- deyə QMİ sədri vurğulayıb. Qeyd edib ki, Prezident İlham Əliyevin qlobal miqyasda dəyər kəsb edən təşəbbüsləri bəşəriyyətin ümumi inkişafına, sülh və dinc birgəyaşayış amallarına xidmət edir. Tolerantlıq ənənələrimizin, mədəni-mənəvi irsimizin təbliğində Heydər Əliyev Fondunun müstəsna xidmətləri var. Ölkəmizin birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın yüksək mənəvi dəyərlərə dünya miqyasında ali himayəsi ən yüksək qiymətə layiqdir. Müasir Azərbaycan dini dəyərlərə ən yüksək ehtiramın, dini abidələrə, o cümlədən məscidlərlə yanaşı, xristian və yəhudi dini məbədlərinə dövlət səviyyəsində qayğı və himayənin mövcud olduğu nümunəvi məkandır. Azərbaycan müxtəlif sivilizasiyalar arasında tarixən oynadığı mənəvi körpü rolunu bu gün də layiqli şəkildə davam etdirir. Azərbaycanda din-dövlət münasibətlərinin yüksək səviyyəsi bütün bu uğurlarımıza rəvac verən məqamlardandır. Şeyxülislam Allahşükür Paşazadə vurğulayıb ki, konfessiyalararası anlaşma, dinlərarası dialoq, müxtəlif din xadimlərinin əməkdaşlığı milyonlarla insan üçün ən gözəl örnəkdir. Məzhəbindən asılı olmayaraq, bölgə müsəlmanlarının tarixi dini mərkəzi olan Qafqaz Müsəlmanları İdarəsi dinlərarası dialoq sahəsində malik olduğu təcrübəni məhz bu istiqamətdə davam və inkişaf etdirir. QMİ nəzdində yaradılmış Bakı Beynəlxalq Dinlərarası və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin fəaliyyəti məhz bu mərama xidmət edir. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə dini mərkəz arasında əməkdaşlıq öz bəhrəsini verir. Bu gün bütün problemlərin fövqündə duran sülhün qorunması probleminin həllində, habelə terrorizmin, islamofobiyanın, antisemitizmin, ekstremizmin və radikalizmin qarşısının alınmasında dövlət rəhbərlərinin, ictimai və dini qurumların liderlərinin birgə əməkdaşlığı vacibdir.

ABŞ Etnik Anlaşma Fondunun prezidenti Mark Şnayer bildirib ki, Azərbaycan dinlərarası və məzhəblərarası münasibətlərə görə bütün dövlətlərə nümunə ola bilər. Burada multikulturalizmin ən gözəl forması mövcuddur. Azərbaycanda yüz illər ərzində tolerantlıq, dini dözümlülük formalaşıb. Qeyd edib ki, Azərbaycan Prezidenti bu münasibətlərin qorunub saxlanılması üçün bütün səyləri göstərir. Bugünkü konfrans Azərbaycandakı dini konfessiyalarla ABŞ-dakı yəhudi və yevangelist xristian icmaları arasında əlaqələrin qurulması və gələcək əməkdaşlığın daha da dərinləşməsi baxımından olduqca əhəmiyyətlidir. M.Şnayer Azərbaycanın multikultural və tolerantlıq sahəsindəki modelinin dünya ölkələri sırasında qabaqcıl yer tutduğunu vurğulayıb.

Konfransda çıxış edən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov ölkəmizin dövlət-din münasibətləri sahəsində qazandığı uğurlardan danışıb. Bildirib ki, Azərbaycan dövləti ölkə vətəndaşlarının dini etiqad azadlığına onların hüquq və azadlıqlarının tərkib hissəsi kimi yanaşır. Azərbaycan vətəndaşlarının dini etiqad azadlığının təmini ölkə qanunvericiliyində əksini tapıb. Azərbaycanda dövlət-din münasibətlərinin yüksək səviyyədə olmasına nümunə kimi ölkədə milli etiqad azadlığı ilə yanaşı, bütün din və məzhəblərin qanun qarşısında bərabər olması qeyd edilməlidir.

"Azərbaycan əhalisinin 96 faizi müsəlmandır. Buna baxmayaraq, dövlət dinlər arasında heç bir ayrı-seçkiliyə yol vermir. Dövlət-din münasibətlərinə dair daha bir nailiyyət ondan ibarətdir ki, dövlət bütün dini icmaların hər birinə lazımi kömək, o cümlədən maliyyə dəstəyi göstərir. Son dövrlərdə Bakıda və regionda çoxsaylı kilsə və məbədlər, yəhudi sinaqoqları əsaslı təmir edilib",- deyə şöbə müdiri vurğulayıb.

E.Nəcəfov bildirib ki, Azərbaycanda tolerantlıq mühitinin daha da gücləndirilməsi daim dövlətin nəzarətində saxlanılır. Ölkəmizdə dini azadlığın yüksək səviyyədə təmin edilməsi, bütün dini məzhəblərin qanun qarşısında bərabər olması, dini qurumlara dövlət dəstəyinin göstərilməsi öz məntiqi nəticəsi kimi ölkə daxilində dinlərarası münasibətlərin qarşılıqlı hörmət əsasında qurulmasına səbəb olub.

Multikulturalizmin Azərbaycan xalqının həyat tərzi olduğunu deyən Milli Məclis Sədrinin müavini Bahar Muradova bildirib ki, bu gün Azərbaycan dünyada dialoq mərkəzinə çevrilib, sülh çağırışları edən ölkə imici qazanıb. Ölkəmiz dayanıqlı inkişaf məqsədlərinə yüksək səviyyədə əməl edir. İnsan hüquq və azadlıqlarının təmin olunması istiqamətində böyük uğurlara nail olub. Azərbaycan BMT qarşısında götürdüyü bütün öhdəliklərə ciddi şəkildə əməl edir. Ölkəmizdə etiqad azadlığı əsaslı şəkildə təmin edilib.

Milli Məclis Sədrinin müavini deyib: "Azərbaycan insanların etnik mənsubiyyətindən, dini inancından, dünya görüşündən asılı olmayaraq, vətəndaş cəmiyyəti quruculuğuna cəlb olunması və bərabər hüquqlarla təmin olunması istiqamətində müsəlman Şərqində ilk addımı atıb. Bu, bütün dünyanı, demokratik cəmiyyətləri hədəf götürən insanlığın nailiyyətidir. Bu gün dinlər və dini konfessiyalar arasında, xalqlar və dinlər arasında harmoniyanı, dialoqu və əməkdaşlığı əldə etmək üçün hamının bu dünyaya və taleyimizə cavabdeh olduğunu anlaması lazımdır".

"İqls Vinqs" təşkilatının qurucusu və rəhbəri yepiskop Robert Störns ölkəmizin dinlərarası əməkdaşlığa verdiyi töhfələr barədə danışıb. R.Störns çıxışında Azərbaycandakı dinlərarası harmoniyanı, tolerantlığı, ölkəmizdə bütün dini bayramların xüsusi təmtəraqla qeyd edilməsini yüksək dəyərləndirib.

"Dini etiqad azadlığı yeganə hüquqlardandır ki, insan hüquqlarını sadaladıqda birinci yerdə olmalıdır", - deyən Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov qeyd edib ki, bu hüququn pozulması digər hüquqların da pozulmasına səbəb olur. S.Novruzov bildirib ki, Azərbaycanda həm qanunun aliliyi, həm də ənənələrin möhkəmliyi dini münasibətlərin inkişafına xidmət edir. "Dini etiqad azadlığı həm təbii, həm də konstitusiya ilə tənzimlənən yeganə hüquqdur. İnsan hüquqları arasında dini etiqad azadlığının xüsusi önəmi var. Çünki istənilən dini etiqad azadlığına qarşı atılan addım insanların digər hüquqlarının pozulmasına gətirib çıxarır. Ölkəmizdə dini etiqad azadlığı yüksək səviyyədə təmin olunub. Əlbəttə ki, cəmiyyətlərin, ölkələrin dayanıqlı inkişafı üçün dövlət-din münasibətləri çox böyük əhəmiyyətə malikdir. Azərbaycanda bu münasibətlər ən yüksək səviyyədə tənzimlənir",- deyə parlamentin komitə sədri vurğulayıb.

Konfransda çıxış edən Milli Məclisin Elm və təhsil komitəsinin sədri, Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəyli qeyd edib ki, artıq dünyanın müxtəlif ölkələrində, o cümlədən Azərbaycanda dinlərarası münasibətlər, mədəniyyətlər və sivilizasiyalar arasında dialoq vasitəsilə bəşəriyyəti yeni bir nizama gətirmək, ədalətli bir cəmiyyət qurmaq fikrinə daha çox istinad edilir. Bu nəzəriyyə dünyada özünü təsdiq etməkdədir.

İsa Həbibbəyli deyib: "Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə dialoq mühitinin formalaşması və möhkəmlənməsi istiqamətində aparılan iş Azərbaycanı multikultural və tolerant ölkə modeli səviyyəsinə qaldırıb. Azərbaycanda bütün dinlərin, təriqətlərin nümayəndələri tolerant bir mühitdə, dinc-yanaşı fəaliyyət göstərirlər. Bunun sayəsində ölkəmizdə ictimai-siyasi sabitlik hökm sürür".

Komitə sədri qeyd edib ki, dinlərarası və sivilizasiyalararası münasibətlərin ayrı-ayrı aspektlərinin, təcrübələrinin və modellərinin belə konfranslar vasitəsilə beynəlxalq müstəvidə daha çox müzakirə olunması və tolerantlığın Azərbaycan modelinin örnək kimi dünya ölkələrinin nümayəndələrinə çatdırılmasının böyük əhəmiyyəti var.

Milli Məclisin deputatı Mixail Zabelin Azərbaycanın çoxmillətli ölkə olduğunu bildirərək müxtəlif din və dillərin nümayəndələrinə qayğı və həssas münasibət bəsləndiyini dedi.

Milli Məclisin deputatı Yevda Abramov isə qeyd edib ki, bu gün dünyada dinlərarası və sivilizasiyalararası dialoqa böyük ehtiyac var. Azərbaycanda tolerantlıq mühitinin dövlət səviyyəsində qorunub-saxlanılmasına həmişə xüsusi diqqət yetirilib. O, konfrans iştirakçılarının Azərbaycan həqiqətlərinin, tolerantlıq mühitinin təbliğatçılarına çevriləcəyinə əminliyini ifadə edib.

Rusiyanın Kabardin-Balkar Respublikasının müftisi Həzrətəli Casayev çıxışında Azərbaycandakı nümunəvi dövlət-din münasibətlərindən bəhs edib. Bildirib ki, qloballaşma və inteqrasiya proseslərinin geniş vüsət aldığı müasir dünyada islamofobiya, antisemitizm, ksenofobiya halları müşahidə olunur. Terrorizm, separatçılıq, dindən sui-istifadə halları artır. Bu cür hadisələrin yaşandığı bir zamanda Azərbaycanın dünyaya təqdim etdiyi multikulturalizm modelinə və mədəniyyətlərarası dialoqa ciddi ehtiyac var. Azərbaycandakı tolerant mühit təkcə bölgədə deyil, bütün beynəlxalq aləmdə yüksək qiymətləndirilir.

Konfransın Braziliyadan, BƏƏ-dən, ABŞ-dan olan iştirakçıları Teofilo Key Hayaşi Marcelino, Benjamin Riçard, Adam Daniel Mesa çıxış edərək ölkəmizdəki multikultural dəyərlərdən, dinlərarası harmoniyadan və bu sahədə əldə edilən nailiyyətlərdən bəhs ediblər

Rus Pravoslav Kilsəsi Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr, Bakı şəhəri Dağ yəhudiləri dini icmasının sədri Melih Yevdayev, Azərbaycan Respublikasında Katolik Kilsəsinin Apostol Prefekturasının yepiskopu Vladimir Fekete, Avropa yəhudilərinin Bakı dini icmasının sədri Aleksandr Şarovski, Alban-Udi Xristian İcmasının rəhbəri Robert Mobili, Gürcü yəhudilərinin Bakı dini icmasının sədri Abiq Çaruxçev, Bakı şəhəri Yevangelist Məsihi Baptistlərinin "Aqape" dini icmasının pastoru Samir Sadıqov, Xilaskar Yevangelist Lüteranlarının Bakı dini icmasının sədri Vera Nesterova, Bakı şəhəri "Azərbaycan Bibliya Cəmiyyəti" Xristian dini icmasının rəhbəri Rasim Xəlilov çıxışlarında Azərbaycanda bütün dini konfessiya nümayəndələrinə yaradılan bərabərhüquqlu şəraitdən, bu sahəyə göstərilən dövlət qayğısından bəhs ediblər. Onlar Azərbaycanın tolerantlıq və multikulturalizm sahəsindəki təcrübəsinin bütün dünyada təbliğ və təşviq edilməsinin vacibliyini diqqətə çatdırıblar.

Sülh, əməkdaşlıq naminə bir araya gələn ölkələr və dinlər arasında ünsiyyət platformasının daha da dərinləşdirilməsi istiqamətində müzakirələrlə başa çatan konfransdan sonra yerli və beynəlxalq mətbuat nümayəndələri üçün brifinq keçirilib, jurnalistləri maraqlandıran suallar ətraflı cavablandırılıb.

Qeyd edək ki, konfrans çərçivəsində Azərbaycanın tarixi-dini abidələrinin fotolarından ibarət sərgi təşkil olunub.

# "Gəncə - 2019-cu ilin Avropa İdman Şəhəri" layihəsinin təntənəli açılış mərasimi keçirilib

Martın 5-də - Bədən Tərbiyəsi və İdman Günündə Nizami yurdunda "Gəncə - 2019-cu ilin Avropa İdman Şəhəri" layihəsinin təntənəli açılış mərasimi keçirilib.






Heydər Əliyev Park Kompleksində keçirilən açılış mərasimində Avropa İdman Paytaxtları və Şəhərləri Federasiyasının rəsmi nümayəndələri, Gürcüstanın Batumi şəhəri meriyasının təmsilçiləri, Azərbaycanın gənclər və idman naziri Azad Rəhimov, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, eləcə də ölkəmizin tanınmış idmançıları, yerli və xarici qonaqlar iştirak ediblər. AZƏRTAC xəbər verir ki, əvvəlcə tədbir iştirakçıları Heydər Əliyev Mərkəzinin önündə ulu öndərin abidəsini ziyarət ediblər.

Təntənəli açılış mərasiminə Heydər Əliyev Mərkəzinin önündən start verilib. Mərkəzdən amfiteatradək olan məsafədə qurulan pavilyonlarda fərqli idman növləri üzrə təmsil etdikləri idman federasiyaları və idman klublarının üzvləri nümunəvi çıxışlarını təqdim ediblər.

Nazir Azad Rəhimov Gəncə şəhərini yerli və beynəlxalq əhəmiyyətli yarışlarda təmsil edən gənclərlə və veteran idmançılarla görüşüb.

Təntənəli mərasim Dövlət himinin səslənməsi ilə başlayıb.

Açılış mərasimində çıxış edən Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov tarixi əhəmiyyətli hadisə - "2019-cu ilin Avropa İdman Şəhəri" layihəsinin açılışı münasibətilə gəncəliləri və idman ictimaiyyətini təbrik edib.

Bildirilib ki, Azərbaycanda böyük idman hərəkatı ayrı-ayrı bölgələrdə olduğu kimi, Gəncə şəhərində də uğurla həyata keçirilir. Gəncə idmançıları hər il müxtəlif beynəlxalq yarışlarda iştirak edərək ildən-ilə öz nailiyyətlərini yüksəldirlər.

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş, bu gün isə Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən dövlət gənclər siyasətinin nailiyyətlərindən danışan Niyazi Bayramov idmanın ayrı-ayrı sahələrinə, yeniyetmə və peşəkar idmançılara yaradılan şəraiti, göstərilən diqqət və qayğını yüksək dəyərləndirib.

Qeyd edilib ki, 2016-cı ildə Avropanın Gənclər Paytaxtı, 2017-ci ildə MDB ölkələrinin Mədəniyyət Paytaxtı olan Gəncə "ACES Europe" təşkilatı tərəfindən bu il üçün Avropanın İdman Şəhəri tituluna layiq görülüb.

Vurğulanıb ki, Gəncədə hazırda üç idman məktəbi fəaliyyət göstərir. Bu məktəblərin yetirmələri həm ölkə, həm Avropa, həm də dünyamiqyaslı yarışlarda yüksək nailiyyətlər qazanırlar. Şəhərdə peşəkar və həvəskar futbol klubları yaradılıb. Gəncədə ölkəmizin əksər bölgələrində olduğu kimi, müasir olimpiya idman kompleksi fəaliyyət göstərir.

Sonda Niyazi Bayramov əminliklə ifadə edib ki, gəncəli idmançılar Azərbaycanda bu sahəyə, eləcə də onlara göstərilən dövlət dəstəyinə beynəlxalq yarışlarda bayrağımızı ucaltmaqla cavab verəcəklər.

Tədbirdə çıxış edən gənclər və idman naziri Azad Rəhimov beynəlxalq layihənin açılışı münasibətilə idman ictimaiyyətini və gəncəliləri təbrik edib.

Martın 5-nin ölkəmizdə Bədən Tərbiyəsi və İdman Günü olduğunu deyən Azad Rəhimov bildirib ki, bu tarix Prezident İlham Əliyevin 2005-ci il 4 mart tarixli sərəncamına əsasən qeyd olunur. Məhz 1995-ci il martın 5-də ulu öndər Heydər Əliyev Bakı İdman Sarayında dünya və Avropa çempionatlarının qalibləri və mükafatçıları ilə görüşüb, İdman Fondunu təsis edib, bədən tərbiyəsi və idmanın inkişafında yeni strategiyanın təməlini qoyub. Prezident İlham Əliyevin hələ 1997-ci ildə Milli Olimpiya Komitəsinin rəhbəri seçilməsindən sonra ölkəmizdə idmana, bədən tərbiyəsinə diqqət daha da artıb və idmanın maddi-texniki bazasının möhkəmləndirilməsi, idmançıların peşəkar səviyyədə hazırlanmasına göstərilən qayğı tezliklə öz müsbət nəticəsini göstərib.

Nazir Gəncənin 2019-cu ildə Avropanın İdman Şəhəri titulunu şərəflə daşıyacağını, Nizami yurdu idmançılarının isə hər il olduğu kimi, bu il də yüksək nailiyyətlər qazanacağını deyib.

Açılış mərasimində çıxış edən Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə bildirib ki, Gəncənin 2019-cu ildə Avropanın İdman Şəhəri tituluna layiq görülməsi bu şəhərin zəngin idman ənənələrinə malik olduğunun təsdiqidir. "1997-ci ildə İlham Əliyev Milli Olimpiya Komitəsinin prezidenti seçildikdən sonra respublikamızda ilk olimpiya komplekslərindən biri məhz Gəncə şəhərində inşa olunub. Bu gün isə Gəncə şəhərində daha bir böyük olimpiya idman kompleksi tikilir. Bu idman sarayı da şəhərdə idmanın inkişafına xidmət edəcək", - deyə Ç.Hüseynzadə qeyd edib.

Sonra Gənclər və İdman Nazirliyinin sifarişi əsasında xüsusi olaraq layihənin açılış mərasimi üçün hazırlanmış, Gəncənin çoxəsrlik tarixini, müasir inkişafını və idman uğurlarını özündə əks etdirən "Karvan" filmi mərasim iştirakçılarına təqdim olunub.

Tədbir boyu şəhərdə gəzən karvan rəmzi olaraq Gəncənin idman tarixinə səyahət edib və amfiteatra toplaşmış tamaşaçılar bu səyahəti monitor vasitəsilə izləyiblər.

Açılış mərasimində Bakıdan dəvət olunmuş və yerli incəsənət nümayəndələri konsert proqramı ilə çıxış ediblər.

Beləliklə, "Gəncə - 2019-cu ilin Avropa İdman Şəhəri" layihəsinin təntənəli açılış mərasimi öz inkişafının müasir dövrünü yaşayan Nizami yurdunda coşqu ilə qarşılanıb və ictimai əhəmiyyətli ümumşəhər idman bayramına çevrilib.

Xatırladaq ki, 2018-ci il mayın 16-da Gəncə şəhəri 2019-cu ilin Avropa İdman Şəhəri elan edilib. Belçika Krallığının paytaxtı Brüsseldə "ACES Europe"nın təşkilatçılığı ilə Avropanın İdman Paytaxtı və Avropanın İdman Şəhəri titullarını qazanan şəhərlərin rəsmi təltif-olunma mərasimi keçirilib. Tədbirdə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramovun başçılıq etdiyi nümayəndə heyəti 2019-cu il üçün Avropanın İdman Şəhəri titulunu əks etdirən rəsmi bayrağı qəbul edib. Avropanın İdman Şəhəri titulunu MDB ölkələri arasında ilk dəfə Gəncə şəhəri qazanıb.

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Sabunçu rayonundakı 2 saylı doğum evində olub






Martın 4-də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Bakının Sabunçu rayonunda yerləşən 2 saylı doğum evində olub. Xatırladaq ki, bu doğum evi ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1987-ci ildə istifadəyə verilib.

AZƏRTAC xəbər verir ki, Leyla Əliyeva doğum evindəki palataları gəzdi, dünyaya yeni göz açan körpələrin və onların analarının səhhəti ilə maraqlandı, uşaqların sağlam böyümələrini arzuladı.

Heydər Əliyev Fondu tərəfindən yeni küvəzlərlə təmin olunan tibb müəssisəsi 120 çarpayıdan ibarətdir. Doğum evində bundan əvvəl olan küvəzlər müasir standartlara cavab vermirdi.

Leyla Əliyevaya bu xüsusi aparatda saxlanılan tənəffüs və digər problemlə anadan olan uşaqların müalicəsi barədə məlumat verildi. Yeni küvəzlərdə ana və körpədə qan qrupları və rezus üzrə uyğunsuzluq xəstəliyi, tənəffüs,



az çəki problemi olan, vaxtından əvvəl dünyaya gələn və intensiv terapiyaya ehtiyacı olan uşaqların müalicəsi aparılır. Hazırda 2 saylı doğum evində yeni doğulan 70-dən çox körpədən 3-ü küvəzdə saxlanılır. Həkimlər bu körpələrin vəziyyətinin sabitləşdiyini, müsbət dinamikanın müşahidə edildiyini bildirdilər.

Tibb müəssisəsində 398 işçi çalışır.

Heydər Əliyev Fondunun vitse-prezidenti doğum evinin əməkdaşları ilə şəkil çəkdirdi, onlara işlərində uğurlar arzuladı.

# Tehranda Azərbaycan ilə İran arasında iqtisadi əlaqələrin perspektivləri müzakirə edilib

Azərbaycan Respublikasının iqtisadiyyat naziri, Azərbaycan ilə İran arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının həmsədri Şahin Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyəti Tehranda səfərdədir.

AZƏRTAC xəbər verir ki, səfər çərçivəsində bir sıra görüşlər keçirilib.

Görüşlərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İran İslam Respublikasının Prezidenti Həsən Ruhani arasında qarşılıqlı hörmətə və etimada əsaslanan münasibətlərin ölkələrimizin əlaqələrinin bütün sahələrdə genişlənməsində mühüm rolu vurğulanıb.

İranın yollar və şəhərsalma naziri Məhəmməd Eslami ilə görüşdə ölkələrimizin əlaqələrindən danışan nazir Şahin Mustafayev son illərdə əməkdaşlığın daha da genişləndiyini diqqətə çatdırıb. Bildirilib ki, son 5 ildə Azərbaycan və İran prezidentləri arasında 12 görüş olub, 100-dən çox qarşılıqlı səfərlər təşkil edilib, 24 biznes forum və işgüzar görüş keçirilib. İndiyədək ölkələrimiz arasında 150-dən çox sənəd imzalanıb. Azərbaycanda sənaye, tikinti, xidmət, rabitə, ticarət, nəqliyyat, kənd təsərrüfatı və s. sahələrdə 1000-dən çox İran şirkəti qeydiyyatdan keçib. İran tərəfindən Azərbaycan iqtisadiyyatına 3,4 milyard dollar investisiya yatırılıb.

Nazir Şahin Mustafayev ölkələrimizin sənaye, energetika, kənd təsərrüfatı, ticarət, səhiyyə, turizm, sərhəd-gömrük və digər sahələrlə yanaşı, nəqliyyat-tranzit sahəsində də uğurla əməkdaşlıq etdiyini, "Şimal-Cənub Beynəlxalq nəqliyyat dəhlizi"nin inkişafında hər iki ölkənin rolunu vurğulayıb, nəqliyyat dəhlizinin inkişafının Azərbaycan-İran iqtisadi əməkdaşlığının, xüsusilə yükdaşımalar, ticarət və turizm əlaqələrinin genişlənməsinə müsbət təsir göstərəcəyini qeyd edib.

İranın yollar və şəhərsalma naziri Məhəmməd Eslami ölkəsinin Azərbaycanla əlaqələrin genişlənməsinə xüsusi önəm verdiyini, Azərbaycan-İran əlaqələrinin inkişafı istiqamətində ardıcıl tədbirlərin həyata keçirildiyini bildirib.

Səfər çərçivəsində iqtisadiyyat naziri Şahin Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyəti İranın iqtisadi işlər və maliyyə naziri, Azərbaycan ilə İran arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının həmsədri Fərhad Dejpəsənd ilə görüşüb.

Nazir Şahin Mustafayev Azərbaycanın İranla əlaqələrin genişlənməsində maraqlı olduğunu, son illərdə Azərbaycan-İran əlaqələrinin yüksək səviyyəyə çatdığını qeyd edib. Hər iki ölkənin prezidentlərinin əlaqələrin inkişafına böyük önəm verdiyini və Dövlət Komissiyasının işinə dəstək göstərdiyini vurğulayıb.

İki ölkənin iqtisadi-ticari əlaqələri barədə danışan Şahin Mustafayev qeyd edib ki, ötən dövrdə ticarət sahəsində əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində davamlı tədbirlər görülüb, ticarət dövriyyəsinin həcmi 2018-ci ildə 74 faiz artaraq 446 milyon dollara çatıb. Azərbaycan ilə İran birgə layihələri çərçivəsində Neftçala Sənaye Məhəlləsində avtomobil istehsal edilir. Bakıda Azərbaycan-İran klinikası açılıb, Pirallahı Sənaye Parkında birgə əczaçılıq zavodunun təməli qoyulub.

Şahin Mustafayev qarşılıqlı ticarətin həcminin daha da artırılması və strukturunun şaxələndirilməsi, kənd təsərrüfatı, turizm, tranzit və yükdaşımalar sahələrində əlaqələrin inkişafı imkanlarını qeyd edib.

Nazir Fərhad Dejpəsənd son illərdə ölkələrimiz arasında əməkdaşlığın genişlənməsi üçün görülən işləri vurğulayıb, bu ilin martında Bakıda keçirilməsi planlaşdırılan Dövlət Komissiyasının 13-cü iclasının ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişafı istiqamətlərinin müzakirəsi üçün əhəmiyyətli platforma olacağını qeyd edib.

Ölkələrimiz arasında iqtisadiyyat, ticarət, maliyyə və digər sahələrdə əlaqələrin genişləndirilməsi məsələləri barədə fikir mübadiləsinin aparıldığı görüşlərdə Azərbaycanın İrandakı səfiri Bünyad Hüseynov iştirak edib.

# Səudiyyə Ərəbistanı Azərbaycana investisiya qoyuluşunda maraqlıdır

## Bu il Azərbaycan ixrac missiyası Səudiyyə Ərəbistanına səfər edəcək

İqtisadiyyat naziri Şahin Mustafayev ölkəmizdə səfərdə olan Səudiyyə Ərəbistanı Krallığının Baş İnvestisiya Qurumunun rəhbəri, Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında Müştərək Komissiyanın həmsədri İbrahim bin Əbdülrəhman əl-Ömərin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə Ş.Mustafayev ölkələrimiz arasında əlaqələrin inkişafında Azərbaycan Respublikası Prezidentinin Səudiyyə Ərəbistanına səfərlərinin, aparılan danışıqların mühüm əhəmiyyətini vurğulayıb, yüksəksəviyyəli siyasi münasibətlərin iki ölkə arasında iqtisadi əməkdaşlığın genişlənməsi üçün əlverişli zəmin yaratdığını diqqətə çatdırıb. Qeyd edib ki, ölkələrimiz arasında möhkəm müqavilə-hüquq bazası yaradılıb, Azərbaycan və Səudiyyə Ərəbistanı biznes dairələri arasında əlaqələr uğurla inkişaf edir, iqtisadi əməkdaşlığın daha da genişləndirilməsi məqsədilə Bakıda və Ər-Riyadda biznes forumları keçirilib, Ər-Riyad və Ciddə şəhərlərinə ixrac missiyaları təşkil olunub. Cari ildə də Azərbaycan ixrac missiyası Səudiyyə Ərəbistanına səfər edəcək.

Nazir deyib ki, Səudiyyə Ərəbistanı şirkətləri indiyədək Azərbaycan iqtisadiyyatına 370 milyon dollar investisiya yatırıb. Səudiyyə İnkişaf Fondu ilə məktəb tikintisi, kanal və yol tikintisi sahələrində uğurlu maliyyə əməkdaşlığı həyata keçirilib, su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihələri üzrə işlər davam etdirilir. Son illərdə Səudiyyə Ərəbistanından Azərbaycana gələn turistlərin sayı əhəmiyyətli dərəcədə artıb. Bakıda keçirilən Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında Müştərək Komissiyanın iclası, həmçinin iş adamları üçün təşkil edilmiş işgüzar görüş ölkələrimiz arasında əməkdaşlığa töhfə verir.

Ş.Mustafayev Səudiyyə Ərəbistanı iş adamlarını Azərbaycandakı əlverişli işgüzar şəraitdən yararlanmağa, sənaye parklarına və məhəllələrinə, aqroparklara investisiya yatırmağa dəvət edib.

Səudiyyə Ərəbistanı Krallığının Baş İnvestisiya Qurumunun rəhbəri, Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında Müştərək Komissiyanın həmsədri İbrahim bin Əbdülrəhman əl-Ömər Azərbaycandakı sabitlikdən, inkişafdan məmnunluğunu, ölkəsinin Azərbaycana investisiya qoyuluşunda marağını diqqətə çatdırıb, iki ölkə arasında əlaqələrin bundan sonra da inkişaf edəcəyinə əminliyini bildirib.

Görüşdə energetika, investisiyalar, alternativ enerji, kənd təsərrüfatı, kimya, turizm sahələrində əməkdaşlıq, birgə layihələrin icrası və sair məsələlər müzakirə olunub.

İbrahim bin Əbdülrəhman əl-Ömər Səudiyyə Ərəbistanı iş adamlarının Azərbaycan sahibkarları ilə fəal əməkdaşlıqda maraqlı olduqlarını bildirib və bu məqsədlə hər iki ölkənin biznes dairələrinin faydalana biləcəyi elektron bazanın yaradılmasını təklif edib.

# Prezidentin fərmanının həm sosial, həm də iqtisadi cəhətdən əhəmiyyəti böyükdür

Əvvəli 1-ci səh.



Kompensasiya məbləği ilk növbədə fiziki şəxsin fəaliyyətdə olan və lisenziyası ləğv olunmuş bütün bank və bank olmayan kredit təşkilatları (kredit ittifaqları istisna olmaqla) qarşısında ödəniş müddəti keçmiş əsas kredit borclarının ödənilməsinə yönəldilir, qalan məbləğ isə həmin fiziki şəxsin sərəncamına verilir. Kompensasiyaların hesablanması üçün vətəndaşların istifadəsinə Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən kalkulyator hazırlanaraq təqdim edilmişdir. Həmin kalkulyator https://pk.fimsa.az/ ünvanında yerləşdirilmişdir.

Fərmanın ikinci hissəsi 2012-ci il yanvarın 1-dən verilən və fərman qüvvəyə minənədək bağlanmış kredit müqavilələri üzrə əsas məbləğin və (və ya) faiz borclarının ödənilməsi 360 gündən çox gecikdirilmiş 10 min ABŞ dollarınadək və 17 min manatadək borcların restrukturizasiyasını nəzərdə tutur. Bu məqsədlə banklara 682 milyon manatlıq güzəştli kredit ayrılması nəzərdə tutulmuşdur. Bu vəsaitlə banklar tərəfindən fiziki şəxslərin qeyd edilən borcları 5 il müddətinə (1 il güzəşt müddəti daxil olmaqla) 1 faizlə verilən kreditlərlə restrukturizasiya olunacaqdır. Həmçinin banklar tərəfindən, fiziki şəxslərin vaxtı keçmiş kredit borclarının restrukturizasiya olunacağını nəzərə alaraq, həmin kreditlərə hesablanmış faizlərin silinməsi və məhkəmədə olan işlərin geri çağırılması fərmanda tövsiyə edilmişdir.

Bu sənəd məsələyə kompleks yanaşaraq görülən tədbirlər nəticəsində bankların valyuta mövqeyinin pisləşməsi risklərinin qarşısının alınmasını da nəzərdə tutmuşdur. Bu məqsədlə Azərbaycan Mərkəzi Bankı tərəfindən 215 milyon ABŞ dolları dəyərinədək xarici valyutada ifadə olunmuş, illik faiz dərəcəsi 0,5 faiz olmaqla qiymətli kağızların verilməsini təmin etmək tövsiyə olunmuşdur.

Fərmanın icrası əhalinin borc yükünün azalması ilə onların sosial və mənəvi vəziyyətinin yaxşılaşması, həmçinin bankların problemli kreditlərinin əhəmiyyətli azalmasına və daha dayanıqlı kapital buferinin formalaşmasına şərait yaradacaqdır.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# İtaliya Azərbaycanın müdafiə sənayesinə böyük maraq göstərir



Martın 5-də müdafiə sənayesi nazirinin müavini Yəhya Musayev İtaliya Müdafiə Nazirliyinin müdafiə və milli silahlandırma üzrə baş katibi, general-leytenant Nikolo Falsapernanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etdi.

Qonaqları salamlayan nazir müavini iki ölkə arasındakı mövcud əməkdaşlıqdan danışdı və İtaliyanın Azərbaycanın Avropadakı ən böyük iqtisadi tərəfdaşlarından biri olduğunu vurğuladı.

Yəhya Musayev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və mövcud vəziyyətdə müdafiə sənayesinin Azərbaycan üçün əhəmiyyəti barədə məlumat verdi.

Nazir müavini Müdafiə Sənayesi Nazirliyinin fəaliyyət istiqamətləri və bugünə qədər sahə üzrə əldə olunan uğurlardan danışdı. Bildirdi ki, qısa zamanda fəaliyyətə başlayan nazirlik hazırda hərbi təyinatlı məmulatların yaradılması və istehsalı ilə yanaşı, qurulmuş hərbi-texniki əməkdaşlıq sayəsində məhsulların ixracını da həyata keçirir. İxrac imkanlarının genişləndirilməsi üçün beynəlxalq sərgilərdə iştirak xüsusi əhəmiyyət daşıyır.

Nikolo Falsaperna ölkəmizə ilk dəfə səfər etdiyini və bu səfərdən məmnunluq hissi duyduğunu bildirdi. İki ölkə arasında hərbi-texniki sahədə əlaqələrin inkişaf etdirilməsinin əhəmiyyətindən danışdı, bu istiqamətdə əlaqələrin inkişafı və reallaşdırılacaq birgə layihələrin hər iki ölkənin təhlükəsizliyinə xidmət edəcəyini qeyd etdi.

Tərəflər iki ölkə arasındakı mövcud əlaqələrdən məmnun olduqlarını və bu əlaqələrin hərbi-texniki sahədə əməkdaşlığın inkişafına müsbət təsir göstərəcəyini əminliklə vurğuladılar.

Görüşdə İtaliyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Auqusto Massari və digər rəsmi şəxslər iştirak edirdi.

# Teatrın inkişafına dövlətin daha bir töhfəsi

Əvvəli 1-ci səh.

Azərbaycan teatr xadimlərinin müraciətini nəzərə alaraq, səhnə sənətinin fəaliyyətinə qayğının daha da artırılması məqsədilə dövlət başçısı martın 4-də yeni bir sərəncam imzaladı. Bu, bir daha təsdiqlədi ki, Azərbaycan teatr sənətinin ölkəmizin ictimai-mədəni həyatında daim önəmli yeri var. Xalqımız milli ədəbiyyatın qiymətli nümunələri ilə yanaşı, dünya dramaturgiyasının inciləri ilə məhz Azərbaycan teatrının dolğun repertuarı sayəsində yaxından tanış olmaq imkanı əldə edir. Cəmiyyətimizdə milli və ümumbəşəri dəyərlərin təbliğində, vətənpərvərlik ruhunun, yüksək mənəvi keyfiyyətlərin aşılanması və estetik zövqün formalaşdırılmasında teatrın əvəzsiz xidmətləri var.

Həmin ənənələrin qorunub saxlanması və dövrün tələblərinə uyğun inkişaf etdirilməsi üçün Azərbaycan Prezidenti 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin Ehtiyat Fondundan Mədəniyyət Nazirliyinə 1,8 milyon manat, o cümlədən Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı, Azərbaycan Dövlət Musiqili Teatrı, Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı, Azərbaycan Dövlət Rus Dram Teatrı və Azərbaycan Dövlət Kukla Teatrının hər birinə 200 min manat, Naxçıvan Dövlət Musiqili Dram Teatrı, Gəncə Dövlət Dram Teatrı, Sumqayıt Dövlət Dram Teatrı, Mingəçevir Dövlət Dram Teatrı, Lənkəran Dövlət Dram Teatrı və Şuşa Dövlət Musiqili Dram Teatrının hər birinə isə 100 min manat ayrılması üçün sərəncam imzalayıb.



Onu da xüsusi olaraq xatırladaq ki, hələ haqqında söz açdığımız sənədin imzalanmasından öncə Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva martın 1-də mədəniyyət və incəsənət xadimləri ilə görüşündə sənət adamlarının təkliflərini nəzərə alaraq, kinematoqrafiyanın inkişafı üçün də Mədəniyyət Nazirliyinə 5 milyon manat ayrılmasına dair sərəncam verdi. Dövlət başçısı görüşdə teatr işçilərinin əməkhaqlarının azlığı ilə bağlı qaldırılan məsələni nəzarətə götürərək bununla bağlı təkliflər hazırlanmasına və əməkhaqlarının əhəmiyyətli dərəcədə artırılmasına dair tapşırıq da vermişdi.

Bütün bu diqqət və qayğı mədəniyyət sahəsində çalışanların, əlbəttə, öz işlərinə və sənətlərinə daha ürəkdən bağlılıq hissini gücləndirir, eyni zamanda səhnə sənətinin tarixi ənənələrinə sadiq qalmaq üçün üzərimizə ciddi məsuliyyət qoyur. Çalışacağıq ki, biz də öz sevimli peşəmizlə bundan sonra da milli teatrımızın gələcək nəsillərə çatdırılmasına, xalqımızın mənəvi dəyərlərindən biri kimi qorunub saxlanmasına xidmət göstərək. Mədəniyyətimizin, incəsənətimizin bir qolu olan teatr heç vaxt sevimli tamaşaçısından ayrı yaşaya bilməz.

***Azərpaşa NEMƏTOV,***
***xalq artisti, Azərbaycan Teatr Xadimləri İttifaqı İdarə Heyətinin sədri***

# Yüksək rifaha xidmət edən mütərəqqi sosial siyasət

İqtisadiyyatda sosialyönümlülük prinsipindən çıxış edən hər bir dövlətin qarşısında duran vəzifələrdən biri dəqiq, düşünülmüş və cəmiyyətin tələb və reallıqlarını nəzərə alan siyasətin həyata keçirilməsidir. Bu siyasət öz növbəsində sosial ədalət və əhalinin bütün təbəqələri üçün bərabər sosial təminat kimi məsələləri rəhbər tutmalıdır. Bu mənada Prezident İlham Əliyevin fevral ayında imzaladığı müvafiq fərman və sərəncamlar ölkədə həyata keçirilən çevik və mütərəqqi sosial siyasətdən xəbər verir. Bununla da dövlət başçısının bir müddət əvvəl qeyd etdiyi sosial məsələlər həyata vəsiqə qazanır.

## Uğurlu dövlət siyasəti

Ölkədə həyata keçirilən uğurlu sosial siyasət statusundan asılı olmayaraq hər bir vətəndaşın rifahının yüksəlməsində hiss edilir. O cümlədən cəmiyyət həyatının bütün sahələrində, ölkəmizin inkişafında, siyasi-ictimai proseslərdə fəal iştirak edən Azərbaycan qadını da bu siyasətdən layiqincə faydalanır. Azərbaycan qadını ana olmaqla yanaşı, həm də bacarıqlı siyasətçi, iş adamı, dövlət məmuru, xalqın inanıb səs verdiyi deputatdır. Bu fəallıq, Azərbaycan qadınının malik olduğu tarixi ənənələrlə yanaşı, ölkəmizdə həyata keçirilən gender siyasətinin mahiyyətindən, onlara cəmiyyətin tamhüquqlu üzvü kimi bütün imkanlardan bərabər istifadə üçün zəruri şəraitin yaradılmasından irəli gəlir.

Azərbaycan dövlətinin qadınlarla bağlı apardığı ardıcıl siyasət ayrı-seçkiliyin bütün formalarını aradan qaldırmaqla qadınların bərabər hüquq və imkanlarının təmin edilməsinə yönəlmişdir. Bu siyasətin əsaslarını isə ulu öndər Heydər Əliyev müəyyən etmişdi. Ulu öndər Heydər Əliyevin 1998-ci il 14 yanvar tarixli fərmanı ilə gender siyasətinin həyata keçirilməsi məqsədi ilə Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradıldı. Komitənin yaradılmasında əsas məqsəd qadınların hüquqlarının qorunmasından və ölkəmizin sosial və siyasi həyatında onların iştirakının artırılmasından ibarət olmuşdur. 2000-ci ildə ulu öndər Heydər Əliyev qadınların kişilərlə hüquq bərabərliyini, xüsusilə onların dövlət idarəçiliyi sistemində lazımi səviyyədə təmsil olunmasını əməli surətdə təmin etmək məqsədilə "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" fərman imzaladı. Fərmanda qadınların bugünkü inkişaf, tərəqqi dövrünə qədər keçdiyi gərgin, keşməkeşli mübarizə yoluna nəzər yetirilmiş, respublikamızda mötəbər və möhtəşəm qadın hərəkatının fəaliyyətinə yüksək qiymət verilmişdir. Həm dövlət komitəsinin yaradılması, həm də fərmanın imzalanması respublikamızda qadın siyasətinin həyata keçirilməsində yeni mərhələ açdı.

Respublikamızda dövlət qadın siyasəti, bu istiqamətdə ulu öndər Heydər Əliyevin əsasını qoyduğu ənənələr ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən layiqincə həyata keçirilir. Prezident İlham Əliyev qadınların cəmiyyətdəki roluna və yerinə, onların dövlət idarəçiliyində təmsil olunmalarına, irəli çəkilmələrinə diqqətlə yanaşır.

Prezident İlham Əliyevin hər il 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına ünvanladığı təbrik dövlət başçısının zərif cinsdən olan vətəndaşlara diqqətinin və ehtiramının təcəssümüdür. Dövlət başçısı respublikamızın qazandığı uğurlarda qadınların rolunu yüksək qiymətləndirir. 2006-cı ildə Prezident İlham Əliyevin sərəncamı ilə Qadın Problemləri üzrə Dövlət Komitəsi Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi kimi yenidən formalaşdırıldı.

Gender siyasətinin tələblərinə uyğun olaraq ölkədə qadınlarla kişilərin hüquq bərabərliyi təmin olunmuş, bütün dövlət strukturlarında qadınların dövlət idarəçiliyində rolunun artırılması istiqamətində ciddi addımlar atılmışdır. Hazırda Azərbaycan qadınları dövlət idarəçiliyində və seçkili orqanlarda fəal təmsil olunurlar.

## Mehriban Əliyeva müasir Azərbaycan qadınının simvoludur

Respublikamızda qadın hərəkatının formalaşmasında Birinci vitse-prezident xanım Mehriban Əliyevanın xidmətləri xüsusi vurğulanmalıdır. Mehriban Əliyevanın çoxcəhətli və davamlı fəaliyyəti təkcə ölkəmizdə deyil, onun hüdudlarından çox-çox uzaqda da geniş ictimai əks-səda doğurmuşdur.

Azərbaycanın birinci xanımı özünə xas nəcib, humanist və insanpərvər xarakterlə cəmiyyətdə mənəvi aşınma yaradan, eləcə də saf və ali dəyərləri ucuzlaşdıran mənfi meyillərə qarşı barışmaz mövqe tutur, insanlığın təntənəsinə xidmət edən nəcib təşəbbüsləri ilə həm də sivilizasiyalararası dialoq prosesinə öz töhfəsini verir. Heydər Əliyev Fondu ölkəmizdə elmin, təhsilin, mədəniyyətin inkişafı, sosial problemlərin həlli naminə gördüyü çox fəal işlərlə yanaşı, gender problemlərinin, qadınlara qarşı bütün zorakılıqların, ənənəvi Azərbaycan ailəsinə zidd olan stereotiplərin aradan qaldırılmasına xüsusi diqqət yetirir.

Beləliklə, Mehriban Əliyeva öz mənəvi və intellektual enerjisini cəmiyyətin inkişafına yönəltməklə Azərbaycan qadınının ictimai fəaliyyətinin yeni səhifəsini açmışdır. UNESCO və ISESCO kimi nüfuzlu beynəlxalq təşkilatların xətti ilə Mehriban Əliyeva Azərbaycan mədəniyyəti tarixinin səsini planetin ən ucqar guşələrinə belə çatdıra bilmişdir. Onun elm, təhsil, mədəniyyət və idman sahələrinin inkişafına yönəlmiş fəaliyyəti, ölkədəki quruculuq proseslərində yaxından iştirakı ciddi elmi əsaslara söykənir. Azərbaycan qadınları üçün bu, gözəl bir nümunədir. Bütün bunlar Mehriban Əliyevanın yüksək siyasi potensiala malik olduğunu təsdiqləməklə Azərbaycan qadınının modern tələblərə uyğun obrazını dünyaya nümayiş etdirir.

2013-cü il iyunun 7-də Yeni Azərbaycan Partiyasının V qurultayında Mehriban Əliyevanın şəxsində ümumilikdə Azərbaycan qadınına böyük etimad göstərildi. Mehriban xanım Əliyevanın Yeni Azərbaycan Partiyası sədrinin müavini seçilməsi ilə Azərbaycan qadınının siyasətdə təmsilçiliyinə böyük dəyər verildi.

Mehriban Əliyevanın geniş ictimai-siyasi fəaliyyəti təkcə ölkəmizdə deyil, həm də dünya səviyyəsində Azərbaycan qadınının müsbət obrazının formalaşmasında müstəsna rola malikdir. O, sözün əsl mənasında, Azərbaycan qadınının ləyaqət simvoludur və istər humanitar, istər elm və təhsil, istərsə də digər sahələrdə həyata keçirdiyi böyükmiqyaslı tədbirlər qadınların cəmiyyətdə rolunun artmasına dəstək olmaqla yanaşı, həm də başqa ölkələrdə yaşayan qadınlar üçün əsl örnəkdir.

İki il əvvəl isə Mehriban Əliyevanın fəaliyyətində yeni missiya başladı. 2017-ci il fevralın 21-də Birinci vitse-prezident vəzifəsinə təyin olunan Mehriban Əliyeva ilk gündən fəaliyyətini sosial məsələlərə həsr etdi. Qaçqın və məcburi köçkünlərin sosial şəraitinin yüksəldilməsinə, əlillərin sosial reabilitasiyasına xüsusi diqqət ayırdı. Və bu gün biz görürük ki, iki il əvvəl cənab İlham Əliyev Mehriban Əliyevanı Birinci vitse-prezident təyin etməklə olduqca müdrik addım atdı. Ən əsası isə Prezidentin bu qərarı bir daha Azərbaycanda qadının dövlət idarəçiliyində iştirakına verilən yüksək dəyər kimi tarixə düşdü.

## Qanunvericilik təkmildir

Azərbaycan Respublikasının 1995-ci ildə qəbul olunmuş Konstitusiyası qadınların kişilərlə bərabər hüququnu təsdiq etmiş və demokratik dövlət quruculuğu prosesində onların fəal iştirakının hüquqi bazasını yaratmışdır. Konstitusiyanın qadın hüquqlarının müdafiəsinə etibarlı zəmin formalaşdıran 25-ci maddəsində hamının qanun və məhkəmə qarşısında bərabərliyi, habelə kişi ilə qadının eyni hüquq və azadlıqlara malik olduğu birmənalı şəkildə təsbit edilmişdir.

Azərbaycanda qadınlarla bağlı digər qanunlar da kifayət qədər təkmildir. Azərbaycan Prezidentinin qanunvericilik təşəbbüsü əsasında 2006-cı ilin dekabrında Milli Məclisdə qəbul olunmuş "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikasının Qanunu da bu baxımdan xüsusi əhəmiyyət kəsb edir. 2010-cu ildə təsdiq olunan "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanunu isə zorakılığın doğurduğu mənfi hüquqi, tibbi və sosial nəticələrin qarşısının alınması, məişət zorakılığından zərər çəkmiş şəxslərin sosial müdafiəsi, hüquqi yardımla təmin edilməsi, habelə məişət zorakılığına səbəb olan halların aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirləri müəyyən edir və tənzimləyir.

## Prezidentdən gələn sosial təşəbbüslər

Bütün bunlarla yanaşı, Azərbaycan cəmiyyətində sosial sferada atılan mütərəqqi addımlar xüsusən qadınların sosial müdafiəsində böyük rol oynayır. Bu baxımdan təkcə fevral ayında Prezident İlham Əliyevin sosial məsələlərlə bağlı imzaladığı fərman və sərəncamlar qadınların sosial müdafiəsində mühüm rol oynayır.

Ümumiyyətlə, ötən 15 il Azərbaycanda iqtisadiyyatın dinamik inkişafı, dövlət proqramlarının icrasının uğurla davam etdirilməsi ilə yanaşı, əhalinin sosial rifahının yaxşılaşmasına xidmət edən çoxsaylı tədbirlərin həyata keçirilməsi ilə əlamətdardır. Həyata keçirilən düşünülmüş sosial siyasət əhalinin yaşayış səviyyəsinin yüksəldilməsinə, xüsusən, aztəminatlı vətəndaşların sosial müdafiəsinin gücləndirilməsinə xidmət edir. Bu gün Azərbaycanda həyata keçirilən dövlət siyasətinin başlıca istiqamətlərindən birini də əhalinin sosial müdafiəsinin gücləndirilməsi təşkil edir. Elə buna görə də neçə illərdir geniş miqyasda həyata keçirilən sosial müdafiə tədbirləri hətta dünya iqtisadiyyatının böhranlı günlərində belə uğurla davam etdirilmişdir.

Cənab Prezidentin sosial məsələlərlə bağlı müvafiq fərman və sərəncamları da göstərir ki, ölkə rəhbərliyi üçün sosial sahəyə diqqət və qayğı prioritetdir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, artan maliyyə imkanları vətəndaşların sosial rifahının yüksəldilməsinə yönəldilir. Bu baxımdan Prezident İlham Əliyevin fevral ayında imzaladığı fərman və sərəncamlar əhalinin bütün təbəqələrinin, o cümlədən qadınların sosial müdafiəsində mühüm rol oynayır.

Dövlət başçısının cəmiyyətdə yüksək təqdir olunan addımlarından biri minimum əməkhaqqının artırılmasıdır. "Minimum aylıq əməkhaqqının artırılması haqqında" sərəncama əsasən, martın 1-dən minimum əməkhaqqı təqribən 38,5 faiz artdı. Daha dəqiq ifadə etsək, 50 manat artırılaraq 180 manata çatdırıldı. Bu da dövlət büdcəsindən maliyyələşən təşkilatlarda və özəl sektorda işləyən 600 min işçinin əməkhaqqının artması deməkdir. Onlardan dövlət sektorunda işləyən 450 min nəfərin əməkhaqqında 30 faiz, özəl sektorda işləyən 150 min nəfərin əməkhaqqında isə 25 faiz artım özünü göstərəcək.

Başqa bir mühüm sosial addım əmək pensiyalarının minimum məbləğinin artırılması oldu. Bu artımı nəzərdə tutan "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" qanun layihəsi Prezident İlham Əliyevin qanunvericilik təşəbbüsü ilə Milli Məclisə təqdim olunmuş və parlamentin fevralın 19-da keçirilən iclasında qəbul edilmişdi. Cənab Prezidentin təsdiqlədiyi və martın 1-dən qüvvəyə minən dəyişikliyə əsasən əmək pensiyasının minimum məbləği 160 manata çatdırıldı. Dəyişiklik 233 min nəfərin pensiyasında hissolunacaq artıma gətirib çıxaracaq. 9 min insanın pensiyası 2 dəfə, 26 min nəfərin pensiyası 30 faiz artacaq. Bütövlükdə isə əhalinin böyük bir qisminin pensiyası 38,5 faiz civarında artacaq. Bunun üçün bu ilin dövlət büdcəsindən 41 milyon, gələn il isə 49 milyon manat ayrılacaq.

## Əməkhaqları və pensiyalar ardıcıl olaraq artırılacaq

Fevralın 25-də sosial-iqtisadi məsələlərə həsr olunmuş müşavirədə Prezident minimum əməkhaqları və pensiyaların ardıcıl olaraq artırılacağını bəyan etdi. Bununla bağlı danışan Prezident dedi: *"Ancaq o da həqiqətdir ki, bu rəqəm bizi heç də razı sala bilməz. Ona görə müvafiq göstərişlər verildi ki, minimum əməkhaqqının gələcək artımı ilə bağlı təkliflər hazırlansın. İndi bunun maliyyə yükünü, əlbəttə ki, biz qiymətləndirməliyik. Əlbəttə ki, gələcəkdə minimum əməkhaqları və pensiyalar ardıcıl olaraq artırılacaq".*

Ümumiyyətlə, vətəndaşların əmək hüquqlarının qorunması, işçilərin maddi-sosial tələbatlarının ödənilməsi, layiqli həyat səviyyələrinin təmin edilməsi aparılan uğurlu sosial-iqtisadi siyasətin əsas istiqamətlərindəndir. Bunun nəticəsidir ki, son 15 ildə ölkəmizdə maaşlar 7, pensiyalar 9 dəfə artıb. Bu gün minimum pensiyanın səviyyəsinə görə Azərbaycan MDB məkanında ikinci yerdədir.

Lakin göründüyü kimi, cənab Prezident bunu da yetərli hesab etmir və həm pensiyaların, həm də əməkhaqlarını, artırılması gündəlikdə duran əsas məsələlər sırasında yer alır.

Prezident İlham Əliyevin "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" 25 fevral 2019-cu il tarixli sərəncamı isə əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində növbəti mühüm addımdır. Sərəncamla sosial müavinətin məbləği yaşa görə müavinət alanlar üçün 73 manatdan 130 manata, I qrup əlilliyə görə (ümumi səbəbdən əlillər üçün 82 manatdan, müharibə əlilləri üçün 101 manatdan, "Çernobıl AES-də hərbi xidmətlə əlaqədar" və "hərbi xidmət vəzifəsini yerinə yetirməklə əlaqədar" əlilliyi olanlar üçün 94 manatdan) 150 manata, II qrup əlilliyə görə (ümumi səbəbdən əlillər üçün 61 manatdan, müharibə əlilləri, "Çernobıl AES-də hərbi xidmətlə əlaqədar" və "hərbi xidmət vəzifəsini yerinə yetirməklə əlaqədar" əlilliyi olanlar üçün 81 manatdan) 130 manata, III qrup əlilliyə görə isə (ümumi səbəblərdən əlillər üçün 52 manatdan, müharibə əlilləri üçün 73 manatdan və "Çernobıl AES-də hərbi xidmətlə əlaqədar" və "hərbi xidmət vəzifəsini yerinə yetirməklə əlaqədar" əlilliyi olanlar üçün 61 manatdan) 110 manata, sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar üçün 82 manatdan 150 manata, ailə başçısını itirməyə görə ailə üzvlərinin hər biri üçün 68 manatdan 80 manata, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumları (himayəçiləri) üçün 61 manatdan 100 manata, müddətli həqiqi hərbi xidmət qulluqçularının uşaqları üçün 68 manatdan 100 manata, beşdən çox uşağı olan qadınların hər uşağı üçün 33 manatdan 55 manata, uşağın anadan olmasına görə 109 manatdan 200 manata, dəfn üçün ödənilən sosial müavinətin məbləğinin 146 manatdan 300 manata çatdırılması nəzərdə tutulur.

Sərəncam ümumilikdə 576,8 min nəfərə yönələn sosial müavinətlərin və Prezidentin aylıq təqaüdlərinin əhəmiyyətli dərəcədə artırılması, eləcə də həmin təqaüdlərin əhatə dairəsinin daha da genişləndirilməsi məqsədinə xidmət edir.

Təbii ki, sosial sferada cənab Prezidentin imzaladığı fərman və sərəncamlar həm də qadınların sosial müdafiəsinin gücləndirilməsində mühüm rol oynayır.

Prezident İlham Əliyevin fevralın 14-də imzaladığı "Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli 564 nömrəli fərmanında dəyişiklik edilməsi barədə fərman, "Ali təhsil müəssisələrində təqaüd sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə" və "Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə təqaüdlərin verilməsi haqqında" sərəncamlar da olduqca əhəmiyyətli sosial təşəbbüslərdir.

Ali məktəb tələbələri üçün Prezident təqaüdünün məbləğinin 210 manata çatdırılması, ali təhsil müəssisələrində müvəffəqiyyət göstəriciləri əsasında dövlət hesabına maliyyələşən təqaüd yerlərinin sayının 16 min vahid artırılması, doktorantura pilləsi, yəni elmlər doktoru hazırlığı üzrə doktorantlara 300 manat, fəlsəfə doktoru hazırlığı üzrə doktorantlara 180 manat, ali təhsil müəssisələrində və Milli Elmlər Akademiyasında adlı təqaüd alan tələbələrə 170 manat ödənilməsinin nəzərdə tutulması, magistratura, bakalavriat və orta ixtisas səviyyəsi üzrə akademik göstəriciləri olanların, peşə təhsili müəssisələrinin tələbələrinin təqaüdünün yüksəldilməsi ölkənin elm ictimaiyyəti tərəfindən böyük razılıqla qarşılandı. Bu sərəncamlara əsasən, təqribən 100 minə yaxın tələbənin təqaüdü artırıldı. Əlbəttə bu sənədlərin əhatə dairəsi həm də xanımları əhatə edir, onların sosial müdafiəsini əhəmiyyətli dərəcədə yüksəldir. Digər tərəfdən bu sənədlər təkcə bir gəncin təqaüdünün artırılması və yaxud ailə vəziyyətinin yaxşılaşdırılması ilə bağlı deyil, bütövlükdə Azərbaycan dövlətinin, ölkə rəhbərinin öz vətəndaşlarına olan yüksək insani münasibətinin nəticəsidir.

## Azərbaycan qadını şəhid anasıdır

Azadlıq, istiqlaliyyət qansız, qadasız ötüşmür. Bu yolda qan da tökülür, qurbanlar da verilir. Çünki vətən yolunda canından keçməyi bacarmaq lazımdır. Görkəmli türk şairi Mithat Camal Kuntayın yazdığı kimi, "Torpaq, əgər uğrunda ölən varsa, vətəndir". Bəli, dövlət, xalq onda böyük olur ki, onun uğrunda canından keçənlər var. Bu mənada xalqımızın başını uca tutmağa, qürur hissi keçirməyə tam mənəvi haqqı çatır.

2000-ci il yanvar ayının 19-da şəhidlərin xatirəsinə həsr olunmuş ümumrespublika mərasimində ulu öndər Heydər Əliyev deyirdi: "Mən bu gün şəhidlərin xatirəsi qarşısında, ruhu qarşısında and içirəm ki, biz heç vaxt Azərbaycanın müstəqilliyini əlimizdən verməyəcəyik, heç vaxt hansısa bir dövlətə vassal olmayacağıq. Azərbaycanın dövlət müstəqilliyi bütün çətinliklərə baxmayaraq, bizə göstərilən bütün təzyiqlərə baxmayaraq, yaşayacaq və inkişaf edəcəkdir. Müstəqil, demokratik Azərbaycan, hüquqi, dünyəvi Azərbaycan dövləti şəhidlərimiz üçün böyük abidə olacaqdır".



Şəhidlərimizin ruhu bu gün rahatdır. Çünki onların canlarını qurban verdikləri Azərbaycan indi seçilən, müstəqil siyasət yürüdən, heç bir kənar qüvvədən asılı olmayan nüfuzlu dövlətdir. Şəhidlərin vaxtilə sıralarında vuruşduqları ordu isə indi dünyanın ən qüdrətli silahlı qüvvələri sırasında qərar tutub. Şəhidlərimizin ruhu həm də ona görə rahatdır ki, əmanət qoyub getdikləri doğmalarının - valideynlərinin, övladlarının yanında qüdrətli Azərbaycan dövləti var... Bəli, şəhidlərin xatirəsi bizə nə qədər əzizdirsə, onların əzizlərinin, ailələrinin sosial rifahı, mənzil-məişət şəraiti də bir o qədər dövlətimizin diqqət mərkəzindədir. Bu sahədə ən gözəl nümunələri isə Azərbaycan Prezidenti cənab İlham Əliyev ortaya qoyur.

Hələ ötən ilin aprelində keçirilmiş seçkilərdən sonra xalqın birmənalı dəstəyini qazanaraq Prezident seçilən cənab İlham Əliyevin ilk fərmanının məhz şəhid ailələri ilə bağlı olması dövlət başçısının şəhidlərin əziz xatirəsinə dərin ehtiramının və şəhid ailələrinə yüksək qayğısının təzahürü idi. "Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" 2018-ci il 19 aprel tarixli 1 nömrəli fərmana əsasən, şəhid hərbi qulluqçuların vərəsələrinə 11 min manat məbləğində birdəfəlik ödəmələrin verilməsi nəzərdə tutuldu. Bu fərman həmin ailələrin sosial müdafiəsinin yaxşılaşdırılmasının dövlət başçısının sosial siyasətinin başlıca məqsədlərindən biri olduğunu təsdiq etdi, ictimaiyyət tərəfindən böyük rəğbət və məmnunluqla qarşılandı.

Bu il yanvar ayının 28-də Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın şəhid ailələri ilə görüşü və 11 min manat məbləğində birdəfəlik ödəmə alacaq vətəndaşların sayının artırılması barədə yeni fərmanı cənab İlham Əliyevin böyüklüyünü, şəhidlərimizə və onların ailə üzvlərinə olan ehtiramını bir daha sübut etdi. Bu görüş həmin ailələrə yüksək səviyyədə diqqət və qayğının növbəti sübutu kimi Azərbaycan ictimaiyyəti tərəfindən rəğbət və minnətdarlıqla qarşılandı. "Bu, mənim borcumdur, xalqa xidmət etmək mənim ən böyük vəzifəmdir. Mənim üçün bu, böyük şərəfdir ki, sizə bu istiqamətdə xidmətimi göstərim" - deyən Prezident İlham Əliyev elə həmin gün daha bir qrup şəhid ailəsinə sevinc bəxş etdi. Belə ki, yeni fərmanla 11 min manat birdəfəlik ödəmə alacaq şəhid ailələrinin əhatə dairəsi genişləndi. Respublikamızın ərazi bütövlüyü uğrunda 1997-ci ilin avqust ayının 2-dək şəhid olmuş əlavə 2725 şəhidin vərəsələrinə də birdəfəlik ödəmənin verilməsi sənəddə əksini tapdı.

Şəhid ailələrinə verilən Azərbaycan Respublikası Prezidentinin aylıq təqaüdünün məbləği isə yanvarın 30-da artırılaraq 300 manat müəyyən edildi.

Ümumiyyətlə, ölkədə şəhid ailələrinin, o cümlədən döyüşlərdə əlil olmuş şəxslərin sosial rifahının daha da yaxşılaşdırılması üçün ardıcıl tədbirlər həyata keçirilir. Belə ki, indiyədək bu statusu daşıyan vətəndaşlara dövlət tərəfindən 6 min 654 mənzil verilib. Təqdirəlayiqdir ki, təkcə ötən il şəhid ailələrinə və müharibə əlillərinə planlaşdırıldığından 3 dəfə artıq - 626 ev verilib. Bu il həmin vətəndaşlara təxminən 800 mənzil verilməsi nəzərdə tutulur.

## Məcburi köçkünlər daim diqqət mərkəzində olacaqlar

Ölkəmizdə həssas qayğıya ehtiyacı olan elə insanlar var ki, onların problemlərinin yoluna qoyulması, sosial rifahının yüksəldilməsi daha çox diqqət tələb edir. Bəli, söhbət Ermənistanın hərbi təcavüzü nəticəsində doğma yurd-yuvalarından, ev-eşiklərindən didərgin düşmüş qaçqın və məcburi köçkünlərdən gedir. Azərbaycandakı uğurlu sosial siyasət, ölkə iqtisadiyyatının inkişafı məcburi köçkünlərə dövlət qayğısının ildən-ilə artmasında, onların həyat şəraitinin yaxşılaşdırılmasında da aydın nəzərə çarpır.

Qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həllinə yönəlmiş tədbirlər ötən 15 ildə Prezident İlham Əliyevin diqqət və qayğısı nəticəsində uğurla davam etdirilib. Ölkəmizdə sosial rifah halının yüksəlişi, insanların həyat səviyyəsinin yaxşılaşması hələ də öz doğma torpaqlarının nisgili ilə yaşayan qaçqın və məcburi köçkünlərin timsalında özünü aydın büruzə verir. Ölkə rəhbərliyinin bu qəbildən olan insanlara xüsusi diqqət və qayğısının nəticəsidir ki, qaçqın və məcburi köçkün həyatı yaşamağa məcbur olan insanların həyat səviyyəsi, mənzil-məişət şəraitləri əhəmiyyətli dərəcədə yaxşılaşdırılıb. Ölkəmiz MDB, eləcə də Avropa məkanında qaçqın və məcburi köçkünlərin sayına görə ilk yerlərdə qərarlaşır. Buna baxmayaraq, Azərbaycan bu kateqoriyadan olan insanların həyat səviyyəsinin yaxşılaşdırılması baxımından ən fəal siyasət yürüdən və yüksək nəticələr əldə edən ölkədir. Qaçqın və məcburi köçkünlərin yaşayış səviyyəsinin daha da yaxşılaşdırılması dövlətin həyata keçirdiyi siyasətin əsas istiqamətlərindən birini təşkil edir və göstərilən sahədə uğurlu nəticələrin əldə olunduğunu çoxsaylı faktlar təsdiqləyir.

Prezidentin fevralın 26-da böyük sosial paket çərçivəsində imzaladığı sərəncamlardan biri də məcburi köçkünlərin aylıq müavinətlərinin artırılması ilə bağlı oldu. Sərəncama əsasən, məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin məbləği 2019-cu il aprelin 1-dən 50 faiz artırılacaq.

Xatırladım ki, məcburi köçkünlərin hər zaman qayğısına qalan dövlət bu kateqoriyaya aid insanların mənzil-məişət şəraitini də yaxşılaşdırır. Əgər keçən il 5900 məcburi köçkün ailəsi üçün mənzillər, evlər tikilmişdirsə, bu il 7 minə qədər məcburi köçkün ailəsi yeni mənzillərlə, evlərlə təmin ediləcək. Bu, həqiqətən də Prezidentin, dövlətin öz vətəndaşlarına olan diqqət və qayğısının təzahürüdür. Görülən bütün işlərin arxasında vətəndaşın həyat səviyyəsinin, onun rifahının yüksəldilməsi dayanır.

Azərbaycan sosial dövlətdir. Son 15 ilin statistikası, o cümlədən hər il dövlət büdcəsini təsdiq edərkən sosial məsələlərlə bağlı ayrılan xərclər, büdcənin sosialyönümlü olması bunu təsdiq edir. Prezidentin fevral ayında imzaladığı fərman və sərəncamlar isə bu sahədə həyata keçirilən dövlət siyasətinin sistemli və ardıcıl olduğunu göstərir. Dövlət başçısının elan etdiyi böyük sosial paket isə cəmiyyətin bütün təbəqələrinin, o cümlədən qadınların sosial müdafiəsinin daha da gücləndirilməsinə yol açır. Azərbaycan qadını dünyanın ən yüksək mənəvi keyfiyyətlərinin daşıyıcısıdır. Azərbaycan qadınının həm ailədə, həm işdə, həm də cəmiyyətdəki layiqli mövqeyi dövlətimizin uğurlu, xoşbəxt sabahına, xalqımızın firavanlığına ən ciddi təminatlardan biridir. Ona görə Azərbaycan qadını ən yüksək sosial rifah şəraitində yaşamağa layiqdir.

***Hadi RƏCƏBLİ,***
***Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri***

## Azərbaycan Kənd Qadınları Assosiasiyasının təqdimat mərasimi keçirilib

Kəndlərdə aqrobizneslə məşğul olan fermer qadınlar Azərbaycan Kənd Qadınları Assosiasiyasında (AKQA) birləşiblər. Ədliyyə Nazirliyində qeydiyyata alınmış assosiasiyanın martın 5-də təqdimat mərasimi keçirilib. AZƏRTAC xəbər verir ki, tədbirdə 350 qadın fermerlə yanaşı, dövlət qurumlarının, beynəlxalq təşkilatların nümayəndələri də iştirak ediblər.

Kənd təsərrüfatı naziri İnam Kərimov qadınları qarşıdan gələn 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik edərək onlara uğurlar arzulayıb.

Ölkəmizdə kənd təsərrüfatına göstərilən diqqət və qayğıdan, fermerlərə yaradılan əlverişli şəraitdən danışan nazir qadınlara müraciətlə deyib: "Aqrar sahənin inkişafı, kənd əhalisinin rifah halının yaxşılaşdırılması üçün atılan hər bir addımda Kənd Təsərrüfatı Nazirliyinin dəstəyinə əmin ola bilərsiniz".

Qeyd olunub ki, Kənd Qadınları Assosiasiyası ölkədə Qadın İnkişaf Qruplarının milli şəbəkəsi kimi fəaliyyət göstərəcək. Təşkilatlanma hazırda fəaliyyət göstərən qadın qruplarını gücləndirəcək və yeni qrupların yaradılmasına xidmət edəcək. Təşkilatın biznes inkubatorlara dəstək verməsi və rəsmi maliyyə kanallarına çıxışı təmin etməsi də gözlənilir.

"Qadın İnkişaf Qrupları Azərbaycan Kənd Qadınları Assosiasiyası vasitəsilə regional və ölkə səviyyəsində şəbəkələşəcək. Bu, onlara öz bizneslərinin həcmini və miqyasını genişləndirməyə imkan verir. AKQA həm də onlara resurslar tapmaqda və öz məhsullarını satmaqda kömək edəcək. 2019-cu ilin mart ayının sonuna kimi Azərbaycan Kənd Qadınları Assosiasiyasına 500 nəfər kənd qadınını özündə birləşdirən 40 Qadın İnkişaf Qrupunun üzv olması gözlənilir", - deyə Aqrar Kredit və İnkişaf Agentliyinin sədri Mirzə Əliyev bildirib.

Assosiasiyanın özəyi olan Qadın İnkişaf Qrupları 2018-ci ilin martından Kənd Təsərrüfatı Nazirliyi ilə Dünya Bankının birgə həyata keçirdiyi İkinci Kənd İnvestisiya Layihəsi çərçivəsində yaradılmağa başlanıb. Qadınların iqtisadi səlahiyyətləndirilməsi üzrə bu innovativ modeli Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi Dünya Bankı ilə tərəfdaşlıq çərçivəsində həyata keçirir. İndiyədək 361 qadını özündə birləşdirən 30 Qadın İnkişaf Qrupu yaradılıb.

"Qadın İnkişaf Qrupları 10-20 qadından ibarətdir. Bu qruplara maliyyə savadlılığı, biznes və həyat bacarıqları üzrə təlimlər verilir. Bizim dəstəyimizlə İcma Biznes Təbliğatçıları və Kənd Biznes Mütəxəssislərindən təşkil olunmuş dörd biznes inkubatoru yaradılıb və onlar sahədə marketinq araşdırması, uçot aparılması və maliyyə təhlili kimi biznes inkubasiya və inkişaf xidmətləri təklif edirlər. Kəndlərdə qadın qruplarına dəstək göstərmək məqsədilə təlim almış və yüksək biznes bacarıqlarına malik gənclərdən ibarət kadr heyəti yaradılıb",- deyə AKİA sədri qeyd edib.

"Bizim vəzifəmiz, ilk növbədə, kənd təsərrüfatını inkişaf etdirmək olsa da, kənd yerlərində məşğulluğun artırılması, əhalinin rifah halının yaxşılaşdırılması məqsədilə qadınların bütün təşəbbüslərini dəstəkləyirik. Digər tərəfdən, kənd təsərrüfatında mövsümi işlərin çoxluğu müəyyən zamanlarda xeyli asudə vaxt yaradır. Bu müddətdə işlə məşğul olub qazanc əldə etməklə həm də növbəti mövsümdə kənd təsərrüfatına daha çox sərmayə qoymaq imkanı yaranır. Məsələn, şirniyyat evi, təndir, xalça toxuma sexi, inkubator kimi bizneslərlə fəaliyyətə başlamış qadınlar indi qarşılarına aqrobiznes ilə bağlı məsuliyyətli hədəflər qoyub, pambıqçılıq, baramaçılıq, üzümçülük, bağçılıq, eləcə də quşçuluq və heyvandarlıq kimi aqrobiznes sahələrində də özlərini sınayırlar. Fəaliyyətə başlamış olan 30 qadın qrupundan 17-si artıq özlərinin aqrobizneslərini yaradıb", - deyə Mirzə Əliyev vurğulayıb.

Dövlət İmtahan Mərkəzinin (DİM) Direktorlar Şurasının sədri Məleykə Abbaszadə qadınların məşğulluğunun artırılması istiqamətində dövlətimizin həyata keçirdiyi mühüm tədbirlərdən söz açıb.

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Azərbaycan nümayəndəliyinin rəhbəri Mələk Çakmaz çıxışında bildirib ki, Azərbaycanda kənd təsərrüfatı sahəsində çalışanların təqribən 50 faizi qadınlardır. Bu baxımdan onların potensialından istifadə etmək günün tələbidir. Bu istiqamətdə FAO və Dünya Bankı Azərbaycanın Kənd Təsərrüfatı Nazirliyi ilə birgə layihələri gələcəkdə də davam etdirəcək.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova Azərbaycanda qadın sahibkarların fəaliyyətindən söz açıb, bu istiqamətdə həyata keçirilən layihələri, görülən işləri təqdir edib.

Statistik rəqəmlərə müraciət edən komitə sədri bildirib ki, hazırda ölkəmizdə ümumi sahibkarların 35 faizini qadınlar təşkil edir. Bu isə dövlətimizin qadın sahibkarlığının inkişafına diqqət və qayğısının bariz nümunəsidir.

Sonra tədbir digər çıxışlarla davam edib.

Tədbir çərçivəsində Azərbaycan Kənd Qadınları Assosiasiyası üzvlərinin əl işlərindən, eləcə də hazırladıqları çörək, şirniyyat və digər məhsullardan ibarət sərgi də təşkil edilib.

Kitab rəfi

# Publisistika ilə maraqlananlar üçün yeni dərs vəsaiti

"Publisistika elmi və bədii ədəbiyatın qovşağında yerləşdiyinə görə siyasət, estetika, jurnalistika, bədii ədəbiyyat, incəsənət, sosiologiya, psixologiya, informatika kimi elm sahələri ilə sıx bağlı olur. Ancaq daha çox ictimai-siyasi fəaliyyət sahəsini əhatə etdiyinə görə publisistikanın elmi xüsusiyyətləri, publisist-jurnalist peşəsinə tələblər məhz ictimai-siyasi bilik və görüşlər aspektindən formalaşır. Jurnalistin ictimai-siyasi görüşləri onun publisistik yaradıcılığının nüvəsini təşkil edir".




Bu fikirlər Əliş Ağamirzəyevin "Publisistikanın nəzəri əsasları" dərs vəsaitində əksini tapıb. "Mütərcim" nəşriyyatında yaxın vaxtlarda çapdan çıxan kitabda publisistikanın nəzəri əsasları - obyekti, məqsəd və vəzifələri, əsas funksiyaları, tədqiqat metodları, digər fəaliyyət növləri ilə oxşar və fərqli cəhətləri geniş şərh edilib.

Dərs vəsaitində publisistikanın təşəkkülü və keçdiyi tarixi inkişaf yolundan geniş söz açılıb. Müəllif termin kimi publisistikanın XIX əsrdə yarandığını, uzun müddət sosial ədəbiyyat mənasında işlədildiyini, hazırda isə daha çoxşaxəli məna daşıdığını qeyd edib. Bildirib ki, publisistikanın öz tarixi başlanğıcını hansı dövrdən götürməsi barədə müxtəlif fikirlər mövcuddur. Belə hesab edilir ki, ən qədim dövrlərin mətnlərinə də publisistika nöqteyi-nəzərindən yanaşmaq olar. Əliş Ağamirzəyev yazır ki, peşəkar yaradıcılıq kimi daha sonrakı dövrlərdə meydana çıxsa da, publisistikanın formalaşması prosesi uzun bir tarixi inkişaf yolu keçmiş, müxtəlif dövrlərdə ictimai-siyasi proseslərin, dövlət və cəmiyyət münasibətlərinin və ünsiyyət problemlərinin fonunda inkişaf edərək spesifik xüsusiyyətlər qazanıb.

"Publisistikanın nəzəri əsasları"nda yaradıcılıq nailiyyətinin xüsusi növü kimi, eyni zamanda, sosial fəaliyyət sahəsi kimi publisistikanın özünəməxsus cəhətləri, xarakterik xüsusiyyətləri, qnesoloji aspektləri, üslubu haqqında məlumat verilib. Publisistikanın janr müxtəlifliyi qeyd edilib, üç əsas qrupu - informasiya, analitik və bədii publisistik janrlar müəyyənləşdirilib, ayrı-ayrı janrların əsas spesifik əlamətləri izah olunub.

Son iki əsrin bəşəriyyət tarixində elmi-texniki tərəqqi, inqilablar, sosial sıçrayışlar, ictimai həyatın, ünsiyyətin mürəkkəbləşməsi, informasiya axınının hədsiz sürətlənməsi kimi xüsusiyyətlərlə xarakerizə olunduğunu nəzərə çarpdıran müəllif yazır ki, hazırda cəmiyyətin tələbatları, jurnalistikada trendlər dəyişsə də, müasir elm publisistikaya obyektiv tələbatın hələ də davam etdiyini və hətta ona daha çox ehtiyac duyulduğunu təsdiq edir: "Bugünkü mürəkkəb kütləvi kommunikasiya sistemində publisistik mətn xüsusi yer tutur. O, müəlliflə geniş oxucu (dinləyici, tamaşaçı) auditoriyası arasında aktual sosial informasiya mübadiləsində müxtəlif mövqeləri, təsəvvürləri ortaya qoymaqla mətni, onun dinamikasını aktuallaşdırır. Publisistik mətnin imkanları auditoriyaya operativ və birbaşa təsir göstərməyə şərait yaradır. Publisistika təkcə müəlliflə auditoriyaya deyil, elə oxucular, tamaşaçı və dinləyicilər arasındakı münasibətlərə, qarşılıqlı əlaqələrə də təsir göstərir".

Publisistikanın tarixinin, formalaşmasının, geniş imkanlarının, ictimai rəyə təsirinin hərtərəfli araşdırıldığı bu dərs vəsaitindən ali məktəblərin jurnalistika ixtisası üzrə təhsil alan magistrant və tələbələri, həmçinin publisistika ilə maraqlananlar faydalana bilərlər.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

Aqronom məsləhəti

# Bağa baxarsan...

## Gilas və albalının yaz becərməsi martdan başlayır

Azərbaycan təbiəti zəngindir və ölkəmizdə becərilən bütün meyvə-tərəvəz keyfiyyəti ilə fərqlənir. Dadlı və keyfiyyətli meyvələr arasında gilas və albalının da xüsusi yeri var. Həm alıcılıq qabiliyyətinə, həm də qidalılığına görə gilas almadan üstündür. Odur ki, hər il gilas və albalı bağlarının sahələri genişləndirilir.





Onların becərilməsinə yazın əvvəlində başlanır. Bu baxımdan gilas və albalı bağlarında mart-aprel aylarında hansı becərmə işlərinin yerinə yetirilməsi barədə məlumat oxucular üçün faydalı olar. Yeni salınmış, həmçinin məhsuldar gilas və albalı bağlarında aprel ayının ilk ongünlüyündə xəstəlik və zərərvericilərə qarşı 0,4 faizli abiqa-pik, yaxud 0,25 faizli tiram, mankozeb preparatlarından biri ilə 0,05 faizli lambda -siqalotrin, asetamiprid tərkibli insektisidlərdən birinin qarışığı çilənməlidir. Bu çilənmənin aparılması ilə gilas və albalı bağlarında moniliya yanığı, klasterosporioz, kitrəaxma, bakterial xərçəng və digər xəstəliklərin, eləcə də albalı mənənəsi, albalı güvəsi, qırışıqlı qabıqaltı yarpaqbükən, qarışçı, uzunburun böcəklər (kazarka, bukarka) və digər zərərvericilərin başlanğıc mərhələlərdə inkişaflarının qarşısı alınır.

Təzə salınmış gilas bağlarında bitkilərdə ştamb hissəsini yaratmaq məqsədi ilə gövdənin üzərində torpaq səthindən 50 santimetr hündürlüyə qədər olan hissədə inkişaf edən tumurcuqları əllə qırmaq lazımdır. Bununla bitkinin yuxarı hissəsindəki tumurcuqların normal inkişafını təmin etmək olur.

Suvarmanın düzgün aparılması da becərmənin vacib tərkib hissəsidir. Mart-aprel aylarında təzə salınmış gilas və albalı bağlarında hava şəraitindən asılı olaraq suvarma 1-2 dəfə hər ağaca 25-30 litr su verməklə aparılmalıdır. 1-3 yaşlı gilas və albalı bağlarında hər suvarmadan sonra, yaxud ayda 1 dəfə gövdə ətrafları mütləq yumşaldılmalıdır. Əks halda torpaqda əmələ gələn iri çatlardan kök sisteminin quruması baş verər və nəticədə bitki məhv ola bilər.

Azərbaycanın meyvəçilik bölgələrində gilas bitkisinin çiçəkləmə dövrü 5-25 aprelə təsadüf edir. Bunu nəzərə alaraq, çiçəkləmə qurtaran kimi bağlarda zərərverici və xəstəliklərə qarşı kompleks müalicə işi aparılmalıdır. Bu zaman ifenokonazol (0,025 faizli) kaptan, kinfos, dimetoat və sipermetrin qarışıq və ya imidaklopirid preparatlarının qarışığından istifadə olunmalıdır.

Aprel ayının son ongünlüyündə, yəni meyvələrin inkişaf dövründə qeyd etdiyimiz kimyəvi preparatlardan istifadə edilməklə növbəti müalicə işi təkrarlana bilər. Bundan əlavə, meyvə tutumunu yaxşılaşdırmaq məqsədilə kimyəvi çiləmələr zamanı çiləyici aparata saxalin humatı, super-heksal, bolver və digər maye gübrələrin birindən müvafiq dozalara uyğun əlavə etmək lazımdır.

***Mədət QURBANOV,***
***Quba Regional Aqrar Elm və İnformasiya Məsləhət Mərkəzinin direktor müavini, biologiya elmləri üzrə fəlsəfə doktoru***

# Daxili İşlər Nazirliyi və Baş Prokurorluq Yardımlı rayonunun Ləzran kəndində baş verən hadisə ilə bağlı birgə məlumat yayıb

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Baş Prokurorluğu bu il fevralın 23-də Yardımlı rayonunun Ləzran kəndi ərazisində baş verən və ölümlə nəticələnən hadisə ilə bağlı birgə məlumat yayıb.

Hər iki qurumun mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilir ki, fevralın 23-də saat 17 radələrində Yardımlı rayonunun Ləzran kəndi ərazisində kənd sakini Bəhruz İsgəndərov ilə rayonun Şovud kənd sakini Teymur Hüseynov arasında baş vermiş münaqişə zamanı həmin şəxslər, eləcə də Pərviz İsgəndərov, İbrahim Mirzəyev xəsarət alıblar. Bəhruz İsgəndərov aldığı xəsarətlərdən xəstəxanada ölüb.

Faktla bağlı rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci maddəsi ilə cinayət işi başlanıb.

İstintaq zamanı hadisə yeri müayinə edilib, maddi sübutlar götürülüb. Bəhruz İsgəndərovun meyiti daxili və xarici müayinə olunub, məhkəmə-tibbi, kompleks məhkəmə-tibbi bioloji və digər ekspertizalar təyin edilib, şahidlərin ifadələri alınıb və digər zəruri istintaq hərəkətləri aparılıb.

İş üzrə Teymur Hüseynov ifadəsində Bəhruz İbrahimovu bıçaqla vurduğunu etiraf edib. O, Cinayət Məcəlləsinin həmin maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək fevralın 26-da barəsində məhkəmənin qərarı ilə dörd ay müddətində həbs-qətimkan tədbiri seçilib.

Rayonun Ləzran kənd sakinlərinin müraciəti nəzərə alınaraq cinayət işinin icraatı Baş Prokurorluğun Ağır cinayətlərə dair istintaq idarəsinə tapşırılıb. Baş Prokurorluğun və Daxili İşlər Nazirliyinin əməkdaşlarından ibarət istintaq-əməliyyat qrupu yaradılaraq rayona ezam edilib.

Cinayət işinin istintaqı və həyata keçirilən əməliyyat təhlükəsizliyi Azərbaycan Respublikasının baş prokuroru və daxili işlər naziri tərəfindən xüsusi nəzarətə götürülüb.

Hazırda cinayət hadisəsinin bütün iştirakçılarının müəyyənləşdirilərək məsuliyyətə cəlb olunmaları istiqamətində zəruri və təxirəsalınmaz istintaq-əməliyyat tədbirləri davam etdirilir.


## B İ L D İ R İ Ş

Bakı Dövlət Universiteti balansında olan 22 ədəd liftə texniki xidmətin göstərilməsi və təmir edilməsi işlərinin kotirovkalar sorğusu üsulu ilə satın alınmasını həyata keçirir.

Maraqlanan təşkilatlar (012) 539-07-41 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 11 mart 2019-cu il saat 17:00-dək qəbul olunur.

**Ünvan: Bakı şəhəri, Yasamal rayonu, Z.Xəlilov, 23.**

***Tender komissiyası***



Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası
Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı və emalında kreditləşməyə dair Strateji Yol Xəritəsinin hazırlanması xidmətinin satın alınması məqsədilə
***kotirovka sorğusu elan edir***

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər aşağıdakı ünvana - Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının inzibati binasına, Bakı şəhəri, Bülbül pr., 27 ünvanına (əlaqələndirici şəxs: Maliyyə və satınalmalar idarəsinin satınalmalar üzrə aparıcı mütəxəssisi Rüstəm Kərimov, telefon: +99412 493-50-58/285: Faks: +99412 498-12-14) müraciət edə bilərlər.

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər imzalanmış və möhürlənmiş kotirovka təkliflərini 11 mart 2019-cu il saat 11:00-dan gec olmamaq şərti ilə təqdim etməlidirlər. Göstərilən müddətdən gec təqdim olunan kotirovka təklifləri baxılmadan geri qaytarılacaqdır.

***Tender komissiyası***



Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası
Palatada keçirilən beynəlxalq görüş və tədbirlərdə tərcümə xidmətinin satın alınması məqsədilə
***kotirovka sorğusu elan edir***

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər aşağıdakı ünvana - Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının inzibati binasına, Bakı şəhəri, Bülbül pr., 27 ünvanına (əlaqələndirici şəxs: Maliyyə və satınalmalar idarəsinin satınalmalar üzrə aparıcı mütəxəssisi Rüstəm Kərimov, telefon: +99412 493-50-58/285: Faks: +99412 498-12-14.) müraciət edə bilərlər.

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər imzalanmış və möhürlənmiş kotirovka təkliflərini 11 mart 2019-cu il saat 11:00-dan gec olmamaq şərti ilə təqdim etməlidirlər. Göstərilən müddətdən gec təqdim olunan kotirovka təklifləri baxılmadan geri qaytarılacaqdır.

***Tender komissiyası***



Xızı Rayon İcra Hakimiyyətinin Xızı şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəliyi 2019-cu il üçün
***açıq tender elan edir***

**Tender 2 (iki) LOT üzrə keçirilir:**

**LOT - 1** Avtomobil yollarının əsaslı təmiri
**LOT - 2** Xızı şəhərində abadlıq işləri

Tikinti işləri ilin sonunadək başa çatdırılmalıdır. Tenderdə iştirak etmək üçün iddiaçılar hər LOT üzrə 180 (bir yüz səksən) manat məbləğində pul vəsaitini aşağıdakı hesaba köçürdükdən sonra əsas şərtlər toplusunu Tender komissiyasından ala bilərlər.

**Təşkilat: Xızı Y.X.O.**
**Hesab: AZ94AİİB36010019442400201124**
**VÖEN: 7800010811**
**Bank: "Kapital Bank"ın Xızı rayon filialı**
**Kod: 200242**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.İ.F.T.BİK: - AİİBAZ 2X**

İştirak haqqı heç bir halda geri qaytarılmır, tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: mövcud qanunvericiliyə uyğun olaraq ən sərfəli tender təkliflərinə, yüksək keyfiyyətə, kadr potensialına, analoji işlər üzrə təcrübəsinə, maliyyə və texniki imkanlarına.

İddiaçılar tenderdə iştirak etmək üçün 17 aprel 2019-cu il saat 16:00-a qədər aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının bank sənədi;*
- *iddiaçının son bir ildə maliyyə vəziyyəti barədə bank arayışı;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış;*
- *iddiaçıların tender təklifləri Azərbaycan dilində tərtib olunmalıdır.*

Tender təklifi 2 nüsxədə (əsli və surəti) tender təklifinin dəyərinin 1 faizi həcmində bank təminatı ilə birlikdə 25 aprel 2019-cu il saat 16:00-a qədər ikiqat zərfdə bağlanmış və möhürlənmiş şəkildə Xızı şəhər İƏD üzrə nümayəndəliyə (Məhəmməd Füzuli küçəsi, 4) təqdim edilməlidir.

Tender təklifi tender proseduru keçirildiyi tarixdən ən azı 30 bank günü qüvvədə olmalıdır. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı tender proseduru keçirildiyi tarixdən ən azı 60 bank günü qüvvədə olmaqla tender təklifi ilə birlikdə təqdim olunur. İddiaçıların tender zərfləri 26 aprel 2019-cu il saat 11:00-da Xızı şəhər İƏD üzrə nümayəndəliyində (Məhəmməd Füzuli küçəsi, 4) açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

İddiaçılar tender haqqında məlumatları yuxarıda qeyd olunan ünvanda əlaqələndirici şəxs Aslanov Əvəz Qaçay oğlundan ala bilərlər. **Telefon: (023 - 31) 5-03-16**

***Tender komissiyası***


# Beynəlxalq aləm

## ABŞ Rusiyaya qarşı sanksiyaların müddətini uzatdı



ABŞ Prezidenti Donald Tramp 2014-cü ildə Rusiya Ukraynanın Krım yarımadasını işğal etdikdən sonra Moskvaya qarşı tətbiq edilmiş sanksiyaların müddətini bir il uzatmışdır. Ağ evin açıqladığı sənəddə deyilir ki, "Ukraynada demokratik prosesləri və təsisatları sarsıdan şəxslərin hərəkətləri və siyasəti sülhə, sabitliyə, ölkənin suverenliyinə və ərazi bütövlüyünə təhlükə yaradır, habelə onun aktivlərinin qanunsuz mənimsənilməsinə yol açır". Bundan əlavə, "onlar ABŞ-ın milli təhlükəsizliyinə və xarici siyasətinə fövqəladə təhlükə yaratmaqda davam edirlər". Rusiya 2014-cü ilin yazında Krımı işğal etmişdir. Kiyev və dünyanın əksər ölkələri Ukrayna ərazisinin işğalını tanımır.

2014-cü ilin martında, Krımın işğalından sonra ABŞ, Avropa İttifaqı, Avstraliya, Yeni Zelandiya və Kanada Rusiyaya qarşı sanksiyalar tətbiq etmişdir. Sanksiya siyahılarına daxil edilmiş şəxslərin aktivləri dondurulmuşdur. Bundan əlavə, sanksiyalar tətbiq etmiş ölkələrin şirkətlərinə siyahılarda yer almış şəxslər və təşkilatlarla işgüzar münasibətlər qurmaq qadağan edilmişdir.

## *Lukaşenko:* Avrasiya inteqrasiya prosesi "geri dönür"

Belarus Prezidenti Aleksandr Lukaşenko Avrasiya İqtisadi İttifaqı çərçivəsində inteqrasiya proseslərinin dayanması təhlükəsindən danışmışdır. Bu barədə BelTA agentliyi xəbər verir.

Lukaşenko təəssüflə qeyd etmişdir ki, Avrasiya inteqrasiyası prosesi geri dönür. O bildirmişdir ki, Belarusun təsərrüfat subyektləri üçün maneə və məhdudiyyətlər yaradılır.

Belarus lideri xatırlatmışdır ki, İttifaqın qarşısında ümumi bazarın yaradılması və bərabər təsərrüfatçılıq şərtlərinin hazırlanması vəzifəsi qoyulmuşdur. Bu planda problemlər görən Lukaşenko "kəskin məsələlərin həllində paket prinsipinə qayıtmağı" mümkün hesab edir. Onun fikrincə, həmin prinsipi maneə və məhdudiyyətlərin aradan qaldırılması işində də tətbiq etmək olar.

## Türkiyədə 30 hərbçinin saxlanmasına order verildi




Ankara prokurorluğu 2016-cı ilin iyulunda dövlət çevrilişi cəhdində şübhəli bilinən 30 hərbi qulluqçunun saxlanmasına order vermişdir. Onlardan 19-u hazırda ölkənin hərbi hava qüvvələrində xidmət edir. Bu barədə "Anadolu" agentliyi xəbər verir. Ötən ayın axırlarında Ankaranın prokurorluğu FETÖ terrorçu təşkilatı ilə əlaqədə şübhəli bilinən 101 nəfərin saxlanmasına order vermişdir. Bu da ölkədə dövlət çevrilişi cəhdi ilə əlaqəli idi.




## Tramp Hindistan və Türkiyəni ticarət güzəştlərindən məhrum edə bilər

ABŞ Prezidenti Donald Tramp Hindistan və Türkiyə ilə güzəştli ticarət rejimini ləğv etməklə hədələmişdir. Dövlət başçısı Konqresə müvafiq məktub hazırlamışdır.

Ağ evin açıqladığı sənəddə deyilir ki, "Vaşinqtonla Dehli arasında intensiv danışıqlardan sonra Asiya ölkəsi Hindistan bazarına ədalətli çıxışı təmin etmək işində ABŞ-da əminlik yarada bilməmişdir".

1970-ci illərdə start götürmüş güzəştli rejim proqramı çərçivəsində Hindistan ABŞ-a 5,6 milyard dollar məbləğində malları rüsumsuz ixrac edə bilir. Trampın dediyinə görə, o, Hindistanın lazımi meyarlara uyğun olub-olmadığını araşdırmaqda davam edəcək.

Bundan əlavə, ABŞ Prezidenti hesab edir ki, Vaşinqton Türkiyəni ticarət güzəştləri alan, inkişaf etməkdə olan ölkələrə aid etməməlidir. Sənəddə deyilir ki, bu qərar "Türkiyənin iqtisadi inkişafı səviyyəsi əsasında" qəbul olunmuşdur.

İcbari Sığorta Bürosu
Compulsory Insurance Bureau

## İcbari Sığorta Bürosu Yaşıl Kart Sistemi çərçivəsində fəaliyyət göstərmək hüququ olan sığortaçıların reyestrini təqdim edir

| Sığortaçının adı | Reyestrə daxil olma tarixi |
|---|---|
| 1. "AXA MBASK" Sığorta Şirkəti ASC | 15 dekabr 2015-ci il |
| 2. "Xalq Sığorta" ASC | 15 dekabr 2015-ci il |
| 3. "AZSIĞORTA" ASC | 16 dekabr 2015-ci il |
| 4. "Meqa Sığorta" ASC | 16 dekabr 2015-ci il |
| 5. "AtaSığorta" ASC | 16 dekabr 2015-ci il |
| 6. "PAŞA Sığorta" ASC | 17 dekabr 2015-ci il |
| 7. "Standard Insurance" Sığorta Şirkəti ASC | 18 dekabr 2015-ci il |
| 8. "Azərbaycan Sənaye Sığorta" ASC | 18 dekabr 2015-ci il |
| 9. "İpək Yolu Sığorta" ASC | 21 dekabr 2015-ci il |
| 10. "Ateşgah" Sığorta Şirkəti ASC | 21 dekabr 2015-ci il |
| 11. "Azərbaycan Respublikası Dövlət Sığorta Kommersiya Şirkəti" | 22 dekabr 2015-ci il |
| 12. "Qala Sığorta" ASC | 29 mart 2016-cı il |
| 13. "Günay Sığorta" ASC | 25 avqust 2016-cı il |

Azercell

## abunəçilərinin nəzərinə

05.04.2019-cu il tarixdən etibarən "Azercell Telekom" MMC-nin abunəçilərinə təqdim edilən "Zəngimcell" xidmətində yeni istifadə şərtləri tətbiq olunacaqdır. Xidmət haqqı nömrənin balansında mövcud olan vəsaitə uyğun olaraq tənzimlənəcək. Eyni zamanda balansında yetərli vəsait olmayan abunəçilər də 10 (on) günlük (0,50 AZN) xidməti aktiv edə, balansına vəsait əlavə etdikdən sonra isə hissə-hissə ödəməklə xidmətdən yararlana biləcək. "Zəngimcell" xidmətinə abunəlik 1 (bir) gün üçün 0,05 AZN (Xidmətə maksimum 30 günlük (1,50 AZN) abunəlik imkanı təqdim edilir. Bu müddət bitdikdən sonra abunəçi xidmətdən imtina etmədiyi təqdirdə xidmətə abunəlik avtomatik şəkildə nömrənin balansında mövcud olan vəsaitə uyğun olaraq uzadılır) təşkil edəcək. 05.04.2019-cu il tarixinədək "Zəngimcell" xidmətindən yararlanmaqda olan abunəçilər üçün yeni tariflər, əvvəlki tariflərlə əldə edilmiş xidmətin istifadə müddəti başa çatdıqdan sonra tətbiq olunacaq".

## Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Şamaxı rayonundakı Mirzə Ələkbər Sabirin Ev-Muzeyi və Xızı rayonundakı Cəfər Cabbarlının Ev-Muzeyinin bədii tərtibat işlərinin satın alınması ilə əlaqədar *açıq tender elan edir*

**Tender 2 (iki) LOT üzrə keçirilir:**

**LOT 1** - Şamaxı rayonundakı Mirzə Ələkbər Sabirin Ev-Muzeyinin bədii tərtibat işləri
**LOT 2** - Xızı rayonundakı Cəfər Cabbarlının Ev-Muzeyinin bədii tərtibat işləri

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, analoji işlərdə təcrübə, maliyyə vəziyyəti. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu **AZ1000, Bakı şəhəri, Hökumət Evi, Ü.Hacıbəyli küçəsi, 84 ünvanından (Əlaqələndirici şəxs: Məmmədov İsa, əlaqə nömrəsi: 012 493-05-24) E-mail: muzeyinfo@gmail.com** ala bilərlər.

**İştirak haqqı:**
**LOT 1 - 100 manat**
**LOT 2 - 60 manat**
**Hesab: AZ78CTRE00000000000002178501**
**VÖEN: 1700015381**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**Kodu: 210005**
**VÖEN: 1401555071**
**M/H: AZ41NABZ01360100000000003944**
**S.W.İ.F.T: CTREAZ22**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin **1 faizi** həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **16.04.2019-cu il saat 17:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **24.04.2019-cu il saat 17:00-a** qədər **AZ1000, Bakı şəhəri, Hökumət Evi, Ü.Hacıbəyli küçəsi, 84** ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **25.04.2019-cu il saat 14:00-da AZ1000, Bakı şəhəri, Hökumət Evi, Ü.Hacıbəyli küçəsi, 84** ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## "Azərişıq" ASC 2019-cu ildə tələb olunan MP 106 markalı 1 fazalı smart kart tipli sayğacların satın alınması məqsədilə *açıq tender elan edir*

**Tender 1 (bir) LOT üzrə keçirilir:**
**LOT-1**
MP 106 markalı 1 fazalı smart kart tipli sayğacların satın alınması - 400 manat
**"Azərişıq" ASC**
**Hesab No: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab No: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs - Zaur Abdullayev (telefon: 440-39-93 daxili (23-32))

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (www.tender.gov.az).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **17 aprel 2019-cu il saat 16:00-a** qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə **24 aprel 2019-cu il saat 16:00-a** qədər Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **25 aprel 2019-cu il saat 16:00-da** Ələsgər Qayıbov küç., 8 ünvanında "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Bakı Metropoliteni" QSC tərəfindən 15.03.2019-cu il tarixdə keçirilməsi nəzərdə tutulan LOT 1: Müxtəlif növ nasosların və onların ehtiyat hissələrinin satın alınması; LOT 3: Müxtəlif növ metal məmulatlarının satın alınması; LOT 4: Müxtəlif növ taxta və taxta məmulatlarının satın alınması üzrə açıq tenderdə iddiaçıların sayı 3 (üç)-dən az olduğundan tender baş tutmamış hesab olunmuş və davamından imtina edilmişdir.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Bakı Metropoliteni" QSC tərəfindən 05.03.2019-cu il tarixdə keçirilməsi nəzərdə tutulan 1 LOT üzrə "Bakı Metropoliteni" QSC üçün haça tipli mühafizə çəpərinin açıq tender üsulu ilə satın alınması üzrə iddiaçıların sayı 3 (üç)-dən az olduğundan tender baş tutmamış hesab olunur və davamından imtina edilir.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Bakı Metropoliteni" QSC tərəfindən 15 mart 2019-cu il tarixdə keçirilməsi nəzərdə tutulan LOT 2: Boyalar, lak və boya məmulatlarının satın alınması və LOT 8: Müxtəlif növ işçi alətlər üçün sərfiyyat materiallarının satın alınması üzrə açıq tenderin vaxtı 12 aprel 2019-cu il tarixə saat 15:00-a keçirilmişdir. Bununla əlaqədar iddiaçılar tenderdə iştirak etmək üçün sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 03 aprel 2019-cu il saat 18:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 11 aprel 2019-cu il saat 17:00-a qədər Bakı şəhəri, M.Rəfili küçəsi, 16 ünvanına "İcraya nəzarət, kargüzarlıq və təsərrüfat işləri" şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

İtaliya Respublikasının Azərbaycan Respublikasındakı Səfirliyi bildirir ki, cari ilin mart ayının 5-də saat 13:00-da "İtaliyaya giriş vizası ilə bağlı xidmətlərin göstərilməsi üzrə" 1213 saylı, 13 dekabr 2018-ci il tarixli autsorsinq elanı üzrə təkliflərin qəbul edilməsi dayandırılmışdır.

Nəzərdə tutulmuş tarixə qədər bağlı zərflərdə qəbul edilmiş təkliflər cari ilin mart ayının 8-də saat 11:00-da ictimaiyyətə açıq şəkildə (elanda iştirak edən şirkətlərin rəhbərləri, onların hüquqi nümayəndələri və ya etibarnamə əsasında çıxış edən nümayəndələrə icazə verilir) İtaliya Respublikasının Azərbaycan Respublikasındakı Səfirliyində açılacaqdır (Bakı şəh., İçərişəhər, Kiçik Qala küçəsi, 44).

**İtaliya Respublikasının**
**Azərbaycan Respublikasındakı səfirliyi**

## B İ L D İ R İ Ş

"Azərbaycan" qəzetinin 24 yanvar və 7 fevral 2019-cu il tarixli saylarında "Azərsu" ASC daxili vəsaiti hesabına emallı naqillərin satın alınması məqsədilə dərc edilmiş tenderdə iddiaçıların rəsmi müraciətlərinə əsasən tender təkliflərinin və təklif təminatlarının qəbulu vaxtı 18 mart 2019-cu il saat 16:00-a, təkliflərin açılışı isə 19 mart 2019-cu il saat 16:00-a dəyişdirilmişdir.

Əlaqələndirici şəxs - Təchizat və satınalmaların idarə olunması departamentinin Satınalmaların təşkili şöbəsinin mühəndisi Hikmət Qasımov (**hikmat.qasimov@azersu.az**) (+99412) 431-47-67(2249).

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası Mətbəə və çap işlərinə dair açıq tenderin nəticələri barədə

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən 24.01.2019-cu il tarixdə keçirilmiş Mətbəə və çap işləri üzrə açıq tender üsulu ilə satınalmaya dair müsabiqədə "Çaşıoğlu Elm-İstehsalat" MMC ƏDV daxil olmaqla 78.997,46 (yetmiş səkkiz min doqquz yüz doxsan yeddi manat 46 qəpik) manat məbləği ilə qalib elan olunmuşdur və qalib gəlmiş təşkilatla 28 fevral 2019-cu il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

**Palata açıq tenderdə iştirak etmiş digər şirkətlərə təşəkkür edir və fəaliyyətlərində uğurlar arzulayır.**

***Tender komissiyası***

# Ermənistan ordusu iriçaplı pulemyotlardan istifadə etməklə atəşkəs rejimini 24 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 24 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın İcevan rayonunun Paravakar kəndində yerləşən mövqelərdən Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi, Qaralar kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Baş Qərvənd, Şirvanlı, Füzuli rayonunun Qorqan, Kürdlər, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin kollektivi iş yoldaşları Rüstəm İbrahimova atası

**MUSA İBRAHİMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Azərenerji" ASC-nin prezidenti Baba Rzayev Avro-Asiya İnşaat Korporasiyası "EVRASCON" Açıq Səhmdar Cəmiyyətinin Direktorlar Şurasının sədri Əfəndi İsmiyevə oğlu

**FƏRİD İSMİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Avro-Asiya İnşaat Korporasiyası "EVRASCON" Açıq Səhmdar Cəmiyyətinin Direktorlar Şurasının sədri Əfəndi İsmiyevə oğlu

**FƏRİD İSMİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi Avro-Asiya İnşaat Korporasiyası "EVRASCON" Açıq Səhmdar Cəmiyyətinin Direktorlar Şurasının sədri Əfəndi İsmiyevə oğlu

**FƏRİD İSMİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Stomatoloji Mərkəz" MMC-nin direktoru Kamran Aslanov və mərkəzin kollektivi iş yoldaşları həkim-stomatoloq Cəfərağa Səmədova həyat yoldaşı

**ALİYƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Muğansutikinti" MMC-nin direktoru Vaqif Qurbanov Avro-Asiya İnşaat Korporasiyası "EVRASCON" Açıq Səhmdar Cəmiyyətinin Direktorlar Şurasının sədri Əfəndi İsmiyevə oğlu

**FƏRİD İSMİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 8569
Sifariş 819
Qiyməti 40 qəpik